**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ZEYNƏB MUXTAR qızı İSMAYILOVA**

# CORC ELİOTUN "FLOSS ÇAYI ÜZƏRİNDƏ DƏYİRMAN" ƏSƏRİNDƏ İNGİLİS ƏYALƏT HƏYATININ TƏSVİRİ

**İxtisaslaşm: HSM-060201-Filologiya-Ədəbiyyatşünaslıq (İngilis ədəbiyyatı)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər: _____________**
*fil.e.d., prof. Aynur Zakir qızı Sabitova*

**BAKI – 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ.................................................................................................................................3**

**I FƏSİL. VİKTORİYA DÖVRÜ ƏDƏBİYYATINDA CORC ELİOT MƏRHƏLƏSİ .........................................................................................................8**

1.1 İngilis ədəbiyyatında Viktoriya dövrünün yenilikləri.................................8

1.2 Corc Eliotun yaradıcılığında Viktoriya ənənələrinin bədii təzahürü.........21

**II FƏSİL. CORC ELİOTUN "FLOSS ÇAYI ÜZƏRİNDƏ DƏYİRMAN" ƏSƏRİNDƏ VİKTORİYAN DÖVRÜ ƏNƏNƏLƏRİNİN TƏZAHÜRÜ.....................................................................................34**

2.1. Corc Eliotun "Floss çayı üzərində dəyirman" romanının ideya-məzmun xüsusiyyətləri.......................................................................................34

2.2. "Floss çayı üzərində dəyirman" romanında Meqqi və əyalət həyatına üsyan.....................................................................................................50

**NƏTİCƏ ...........................................................................................................63**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.................................................66**

# GİRİŞ

Viktoriya dövrü İngilis qadın ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Corc Eliot qadın kimliyini gizləyərək kişi təxəllüsü ilə əsərlərini qələmə almışdır. Həyatının uzun bir müddətini kənddə keçirmiş yazıçı bu illərdə insanları və ətrafı yaxından tanıma imkanı əldə etmişdir. Dini, əxlaqi və siyasi cəhətdən azad bir mühitdə böyüyən Eliot dövrünün öndə gedən yazıçıları ilə yaxından tanış olmaq imkanı əldə etmişdir. Ədəbi yaradıcılığa tənqidlər və tərcümə işləri ilə başlayan Corc Eliotun bütün romanlarında əxlaqi bir yüksəliş duyğusu, bir ədalət sevgisi sezilir. Yaradıcılığının ən xarakterik xüsusiyyətlərindən biri psixoloji təhlil bacarığı olan yazıçı əsərlərindəki hər hadisə və personaja realistcəsinə xoş və genişürəkliliklə yanaşmışdır.

Corc Eliot yaşadığı dövrdə ingilis cəmiyyətində mövcud olan təbəqələşməni və sinfi mübarizəni dolğun şəkildə bu əsərdə əks etdirmişdir. Yuxarı təbəqənin nümayəndələri öz mövqeyini qorumaq üçün, aşağı təbəqənin isə yüksələ bilmək üçün öz insani hislərini və mənəviyyatlarını necə satmaqlarını Eliot böyük ustalıqla təsvir etmişdir. Eliotun dili o qədər ironiya, satira və rişxəndlə doludur ki, yaratdığı personajlar özlərini öz hərəkətləri vasitəsilə ələ salırlar. Bu baxımdan Corc Eliotun "Floss çayı üzərində dəyirman" romanı XIX əsr ingilis cəmiyyətinin gerçəkliyini dolğun şəkildə əks etdirmiş və müasir dövrümüzdə də öz əhəmiyyətini qoruya bilmişdir.

**Mövzunun aktuallığı.** Müasir dünya ədəbiyyatında öz hökmranlığını qurmuş postmodernizm ədəbi-bədii sözsənətinə ənənəyə qayıdış fikrini gətirdi. Qədim dövr, İntibah dövrü kimi mükəmməl ədəbi nümunələrə yenidən müraciət olunmaqla yanaşı, ədəbiyyatda klassik hesab edilən əsərlər də gündəliyə çıxarıldı. Bu baxımdan, ənənəvi və konservativ ideyaların mühafizəçisi olan Viktoriya dövrü və ədəbiyyatın klassikalarından sayılan Corc Eliotun "Floss çayı üzərində dəyirman" romanının təhlilinə həsr olunmuş bu dissertasiya işinin aktual mövzuya həsr olunduğunu demək doğru olar.

İncəsənətin bir qolu olaraq ədəbiyyatın əsas məqsədi həyat həqiqətlərini sözün bədii gücü vasitəsilə tərənnüm etməkdən ibarətdir. Ədəbiyyat insan oğlunun ilk yarandığı andan, onun hiss və həyəcanları olan bütün zamanlarda mövcuddur. Bir elm sahəsi olaraq ədəbiyyatşünaslıqda çoxsaylı baxış bucaqları və cərəyanlar olsa da, onların hər birinin ortaq cəhəti olmuşdur. Bu ortaq cəhət ədəbiyyatın gerçəkliyi əks etdirməsi xüsusiyyətidir.

Bu baxımdan XIX əsr Viktoriyan dövrü ədəbiyyatı xüsusilə seçilir. Belə ki, bu dövrün söz ustadları nümayəndəsi olduqları dövrün ən aktual problemlərinə güzgü tutaraq gerçəklikləri olduğu kimi öz ədəbi irslərində əks etdirmişlər. Bu nöqteyi-nəzərdən tədqiqata cəlb etdiyimiz yazıçı Corc Eliotun unikal bədii irsi diqqətəlayiqdir. Qələmə aldığı hər bir əsəri oxucu kütlələri tərəfindən rəğbətlə qarşılanan Eliotun elə bəşəri mövzulara toxunmuşdur ki, onlar hər dövr üçün aktual hesab edilirlər. Bu baxımdan tədqiqat işinin ədəbiyyatşünaslıq üçün aktual bir mövzuya həsr edildiyini söyləmək olar.

Elm və texnika inkişaf etdikcə cəmiyyətdə şəhərləşmə prosesi sürətlənir və kəndlərdən iri sənaye şəhərlərə köç artır. Bunun nəticəsi olaraq isə kənd və əyalət həyatı diqqətdən kənarda qalır. Bu baxımdan, Corc Eliotun əyalət həyatının detallı təsvirini verdiyi “Floss çayı üzərində dəyirman” əsərinin təhlili bu sahədəki boşluqları doldurmaqda faydalı olacaqdır.

Məlumdur ki, ölkəmiz uzun illər rus işğalı altında qalmış və bu səbəbdən dünyadan təcrid olunmuşdur. Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra yenidən dünyaya inteqrasiya etmiş və çağdaş dünyamızda baş verən siyasi, iqtisadi, mədəni və ədəbi prosesləri yaxından izləməyə qadir olmuşdur. Milli ədəbiyyatşünaslığımız dünyaya çıxış əldə etmiş və dünya ədəbiyyatı da milli ədəbiyyatımızda öz təzahürünü tapa bilmişdir. Eləcə də, dünya ədəbiyyatının bir parçası olaraq digər xalqların ədəbiyyatları ilə tanışlıq əldə etmək baxmından da, təqdim olunan dissertasiya işi mühüm əhəmiyyət kəsb edir. Belə ki, həmvətənlilərimiz üçün ingilis insanının və ingilis həyatının öyrənilməsi onların dünyagörüşünün zənginləşməsində mühüm rol oynayacaq.

Təəssüflə qeyd etmək lazımdır ki, Qərb ədəbi mühitindən fərqli olaraq, milli ədəbiyyatşünalığımızda Corc Eliotun yaradıcılığına lazımi diqqət göstərilməmiş, ona dünya şöhrəti gətirən "Floss çayı üzərində dəyirman" əsəri doğma dilimizə tərcümə olunmamışdır. Bu səbəbdən düşünürük ki, bu tədqiqat işi milli ədəbiyyatşünaslığımıza öz töhvələrini verəcəkdir.

Bütün bunlara nəzərən qeyd etmək mümkündür ki, Corc Eliotun yaradıcılığı, xüsusən, yazıçının yaradıcılığında əyalət həyatının təsvirinin araşdırılması urbanizasiyanın günü-gündən artdığı dünyanın tam şəkildə qavranılmasının təzahürü kimi aktual problemləri özündə cəmləşdirir.

**Tədqiqatın obyekt və predmeti.** Tədqiqat işinin obyektini Viktoriya dövrü ingilis ədəbiyyatının görkəmli nümayəndəsi olan Corc Eliotun yaradıcılığı təşkil edir. Corc Eliotun "Floss çayı üzərində dəyirman" romanı və əyalət həyatının romanda bədii təzahürünün öyrənilməsi tədqiqat işinin predmeti kimi çıxış edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Corc Eliotun yaradıcılığının təməlini təşkil edən Viktoriyan ənənələrinin özünəməxsus xüsusiyyətlərini üzə çıxarmaq, bu ənənələr vasitəsilə yazıçının romanlarında qaldırdığı problemləri əks etdirmək, yaratdığı personajların hiss və həyəcanlarının realist tərənnümünü izləmək, habelə, oxuculara çatdırmaqdır. Bütün qeyd olunan məqsədlər aşağıdakı vəzifələrin həyata keçirilməsini nəzərdə tutur:

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işində aparılmış təhlil və ümumiləşdirmələr, əldə edilmiş nəticələr Viktoriya dövrü ədəbiyyatının önəmli simalarından olan Corc Eliotun yaradıcılığı, eyni zamanda Viktoriya dövrünə dair elmi mənbə kimi mühazirələrin, seminarların və tədqiqat işlərinin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın fərziyyəsi.** Dissertasiya işinin əsas fərziyyəsini Corc Eliotun "Floss çayı üzərində dəyirman" əsərində təsvir edilmiş bəzi simvolların aşkar edilməsi təşkil edir. Eləcə də, romanda əksini tapdığı düşünülən patriarxal cəmiyyətin təsviri də tədqiqat işinin fərziyyələrindən biridir. Bundan başqa, Corc Eliotun bu əsərdə

protaqonist Meqqinin psixoloji-emosional vəziyyətini əks etdirdiyi iddiası da araşdırmamızın fərziyyələrindəndir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

–XIX əsr ingilis ədəbiyyatında konservativ düşüncələrə əsaslanan Viktoriya dövründə yüksək mənəvi-əxlaqi dəyərlərə malik olmayan əsərlərin ərsəyə gəlməsi;

–Yazıçının romanlarında dövrün qadın yazıçılara qoyulan məhdudiyyətlərlə razılaşmayıb, öz iddialarını cəsurca irəli sürməsi;

–Dövrün tələblərinin yazıçıda yaratdığı psixoloji-emosional vəziyyətin romanlarında, xüsusilə də, "Floss çayı üzərində dəyirman" romanındakı Meqqi personajında əks olunması;

–"Floss çayı üzərində dəyirman" romanındakı Meqqinin digər qadın personajlardan daxili və xarici xüsusiyyətləri ilə fərqlənməsi.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya işi Viktoriya dövrü ingilis ədəbiyyatının görkəmli nümayəndəsi olan Corc Eliotun "Floss çayı üzərində dəyirman" romanında əyalət həyatının təsvirinin araşdırılmasına həsr olunmuş ilk irihəcmli tədqiqat işidir. Həmçinin, bu araşdırma Azərbaycan ədəbiyyatşünaslığında Corc Eliotun "Sayles Marner" və "Middlmarç" romanlarının tədqiq olunması istiqamətində əhəmiyyətlidir. Müxtəlif dövrlərdə Qərb tədqiqatçıları tərəfindən Corc Eliotun yaradıcılığına və "Floss çayı üzərində dəyirman" romanına müraciət olunsa da, Azərbaycan ədəbi-tənqidi fikrində bu mövzunun əyalət həyatının təsviri əsasında öyrənilməsi tədqiqatın elmi yeniliyi hesab oluna bilər.

**Problemin öyrənilmə dərəcəsi:** İngiltərə və Azərbaycan arasında tarixi dövrlər ərzində qarşılıqlı əlaqələr olmuş və bu xalqların ədəbiyyatları arasında oxşarlıqlar və fərqliliklər özünü göstərmişdir. Qarşılıqlı yoldaşlıq münasibətləri çərçivəsində ölkəmizdə İngilis ədəbiyyatına xoş münasibət bəslənmiş və ciddi tədqiqatlar aparılmışdır. Tədqiqata cəlb etdiyimiz Corc Eliotun əsərləri əksər dünya xalqlarının dillərinə tərcümə olunsa da, təəssüflə qeyd etməliyik ki, Azərbaycan dilinə yazıçın Floss çayı üzərində dəyirman" əsəri tərcümə olunmamışdır. Həmçinin, müəllifin yaradıcılığı haqqında yalnız bəzi məqalələrdə, tezislərdə və xarici ölkələr ədəbiyyatı

ilə bağlı dərsliklərdə məlumata rast gəlmək mümkündür. Qərb ədəbi mühitində isə Syuzen Roland, Barbara Hardi, rus tədqiqatçılarından Nataliya Maslova, M.V.Anqelovskaya Corc Eliotun yaradıcılığına xas olan xüsusiyyətləri araşdırmışdırlar.

**Tədqiqat işinin nəzəri metodoloji bazası:** Tədqiqat işində əsasən bioqrafik, mədəni-tarixi və müqayisəli-tarixi təhlil metodlarından istifadə olunmuşdur. Eyni zamanda tədqiqat işinin nəzəri hissələrinin açılmasında Petru Qolban, Tim Dolin, Rozmari Aşton kimi sənətkarların nəzəri fikirlərinə və mülahizələrinə də üstünlük verilmişdir.

Elmi işin əvvəlində Corc Eliotun həyatı təhlil olunarkən bioqrafik metoddan istifadə edilmiş və yazarın həyatı əvvəldən sona qədər ətraflı şəkildə araşdırılmışdır.

Geniş ədəbi yaradıcılığa sahib olan yazarın əsərləri və ədəbiyyata olan münasibəti, dövrünün çağdaş yazarları ilə müqayisə edilmişdir. Burada isə müqayisəli metoddan istifadə olunaraq oxşar və fərqli cəhətlər araşdırılmışdır.

Corc Eliotun həyat və yaradıcılığı XIX əsrə təsadüf etdiyindən, bu dövrlərdə baş vermiş ümumi hadisələrin onun yaradıcılığına olan təsiri mədəni-tarixi metod vasitəsi ilə öyrənilmişdir.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işi Azərbaycan Dillər Universitetinin xarici ölkələr ədəbiyyatı kafedrasında aprobasiyadan keçmiş, kafedranın iclaslarında müzakirə edilmişdir. Bununla yanaşı, “Corc Eliotun “Floss çayı üzərində dəyirman” romanının bədii xarakteristikası” adlı məqalə Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən “Gənc tədqiqatçıların elmi əsərləri” jurnalında çap olunmuşdur. Qeyd olunan məqalə tədqiqat işinin prinsipləri əsasında qələmə alınmışdır və onların məzmunu tədqiqat işinin mövzusu ilə səsləşir.

**Tədqiqat işinin strukturu.** Tədqiqat işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsildə həm Viktoriya dövrünün səciyyəvi xüsusiyyətləri, həm də Corc Eliotun yaradıcılığının əsas xüsusiyyətlərini araşdırılır, ikinci fəsildə isə “Floss çayı üzərində dəyirman” əsərinin analizi, xüusilə, əsərdəki əyalət həyatının təsviri üzərindən təhlilə cəlb olunur.

# I FƏSİL. CORC ELİOT VƏ VİKTORİYA DÖVRÜ.

## 1.1 Viktoriya dövrünün səciyyəvi xüsusiyyətləri.

Böyük Britaniya kraliçası I Viktoriyanın 1837-ci ildə hakimiyyətə gəlməsi ilə ölkədə sülh, zənginlik, milli özünə inam hissi inkişafı etməyə başlayır. Tədqiqatçıların bəziləri bu inkişaf meyllərini 1832-ci il islahatlar aktının qəbul edilməsi ilə də əlaqələndirirlər. Bu dövr Britaniyada uşaqlıq anlayışını kökündən dəyişdi. Əvvəllər olmadığı qədər çox kitablar və oyuncaqlar meydana çıxdı. Eləcə də, uşaqlar üçün hazırlanmış yaradıcılıq işləri də xeyli genişləndirildi. Yazıçılar da öz növbəsində yaradıcılıqlarında uşaqlıq mövzularına geniş yer verməyə başlamışdılar. Yaratdıqları bu azyaşlı qəhrəmanlar adətən böyüklər tərəfindən təbliğ olunan mənəvi-əxlaqi dəyərlərə malik ağır təbiətli qızlar yaxud dəcəl oğlanlar olurdular. Əsərlərdə dövrün müasir ab-havası orta təbəqənin inamlarına uyğun formada təsvir edilirdi. Belə ki, sənətkarlar əsərləri üçün ad seçərkən belə uşaqlara dini, tərbiyəvi və əxlaqi baxımdan düzgün istiqamət verəcək olmasına diqqət yetirirdilər.

Viktoriya dövrü əxlaq məsələlərinə xüsusi diqqət ayırmışdır. Belə ki, hazırki dövrümüzdə də mövcud olan kişi-qadın stereotipləri belə Viktoriya dövrünün məhsuludur. Lakin belə bir yenilikçi dövr öz-özlüyündə yaranmamışdı və tətikləyən tarixi hadisələr və keçmiş ənənələr mövcud idi. Viktoriya dövründən əvvələ nəzər saldıqda ilk diqqət çəkən məqam Romantizm olur.

XVIII əsrin son illərində – 1798-ci ildə İngilis ədəbiyyatında Romantizm dövrü təşəkkül tapmağa başlayır. 1837-ci ilə qədər davam edən Romantizm dövrü daha çox İngiltərənin şimal qərbində yerləşən Göllər ərazisində bir müddət yaşamış və bu səbəbdən "Göl məktəbi" adlandırılan yeni ədəbi tendensiya ilə xarakterizə olunur. Romantizmin estetik əsasını təşkil edən "bədii ideallaşdırma" prinsipi, müstəsna şəraitdə müstəsna xarakterlərin yaradılması, həyatın olduğu kimi kimi deyil, "olmalı olduğu kimi" təsviri prinsiplərindən yaradıcılıqlarında istifadə edən özlərini "Göl şairləri" adlandıran Uilyam Vortsvord (*William Wordsworth, 1770-1850*), Samuel

Teylor Koldric (*Samuel Taylor Coleridge, 1772-1834*), Robert Sauti (*Robert Southey, 1774-1843*) digər romantik sənətkarlar olan Lord Bayron (*Lord Byron, 1788-1824*), Persi Biş Şelli (*Percy Bysshe Shelley, 1792-1822*) və Con Kits (*John Keats, 1795-1821*) kimi şairlərlə birlikdə bu dövrün başlıca təmsilçiləri idilər.

Hər bir bədii əsərin təsir gücü onun nə dərəcə reallığı əks etdirməyindən asılıdır. Lakin bədii təxəyyüldən məhrum əsər də oxucuya maraqlı gəlməyib, sxematik görünə bilər. Təxəyyül dünyası əsasında yazılan əsərlər birbaşa duyğulara təsir edir. Bu səbəbdən ideal sənətkar həm şüura, həm də duyğulara eyni anda müraciət etməlidir. Yalnız reallıqla bədiiliyin harmoniyası əsl sənət əsərini meydana gətirə bilər. Bu səbəbdən Realizmin əksi olan Romantizm heç də əhəmiyyətsiz cərəyan olmayıb, ədəbiyyatın inkişafında mühüm rola malik olmuşdur.

Bununla belə, ağır həyat şəraitində yaşayan ingilis xalqı tezliklə romantik ab-havadan çıxaraq 1837-ci ildən 1901-ci ilə qədər sırf həyat həqiqətlərinə və gerçəklərinə köklənən Viktoriya dövrü ilə əhatələndi. Viktoriya dövründə ingilis xalqı özünün ən konservativ və ən mühafizəkar dövrünü yaşamışdır. İngilis ədəbiyyatı isə Viktoriya erasında özünün ziddiyyətlərlə dolu, romantik bir dövrünü keçirmişdir.

Bu dövrdə paralel olaraq, hiss-ağıl, elm-din, mənəviyyat-əxlaqsızlıq, varlı-kasıb, yaxşı-pis kimi binarlıqlar özünü göstərməkdəydi: “Influenced as they were by the large sprawling novels of sensibility of the preceding age they tended to be idealized portraits of difficult lives in which hard work, perseverance, love and luck win out in the end; virtue would be rewarded and wrong-doers are suitably punished. They tended to be of an improving nature with a central moral lesson at heart, informing the reader how to be a good Victorian. This formula was the basis for much of earlier Victorian fiction but as the century progressed the tone grew darker.” (*Əvvəlki dövrlərin həssaslığının geniş yayıldığı romanlardan təsirlənildi, nəticədə çətin işlərin, əzmlərin, sevginin və şansın sona çatdıqları çətin həyat portretlərini idealizə etməyə meyl etdildi; fəzilət mükafatlandırılır və səhvsizlər cəzalandırılırlar. Onlar oxucunu necə yaxşı bir Viktoriyan olmaq olar deyə məlumatlandıraraq,*

*ürəklərdə mərkəzi mənəvi dərsi yaxşılaşdıran təbiətə meyl edirdilər. Bu formula əvvəllər Viktoriya bədii yaradıcılığının əsasını təşkil edirdi, lakin əsrin ilkin inkişafı bu tonun tündlüyünün artmasına səbəb oldu.*) [35].

Dövrün ədəbiyyatının əsas diqqətçəkən nüanslarından biri də qadına qarşı münasibət idi. Belə ki, bu dövrdə qadın şəhvani hislərini basdırmağı bacarmalı və əxlaq kodekslərini çeynəməməliydi. Hətta qadın yüksək mənəviyyatına görə əzizə – bir növ "Müqəddəs Məryəm" statusuna qaldırılaraq vəsf edilirdi. Bununla belə, bu ziddiyətli dövrdə qadını həmçinin, qarşı cinsi başdan çıxaran şeytani bir qüvvə hesab edirdilər. Viktoriya dövrü İngilis ədəbiyyatının ən görkəmli nümayəndələri isə Bronte bacıları, Uilyam Meykpis Tekkerey, Çarlz Dikkens, Ceyn Ostin, Tomas Hardi və.s olmuşdur.

Viktoriya dövrü teatr sahəsində də müəyyən dəyişikliklərlə müşaiyət olunmuşdur. Kraliçası I Viktoriyanın hakimiyyəti illərində teatr xüsusi inkişaf etməkdəydi və zallar tamaşaçıyla dolub-daşırdı. Əsrin son onilliyində teatr repertuarlarında Oskar Uayldın (*Oscar Wilde*) komediyaları və Uilyam Gilbertin (*William Schwenck Gilbert*) operettaları əsas yer tuturdu. Lakin tamaşaçılar hələ də Şekspirdən qopa bilmirdilər və bu səbəbdən də dövrün tanınmış rejissorları, aktyorları onun rollarını ifa edirdilər. Bu dövrdə dram sahəsindəki əsas yenilik təhrif olunmuş mətnləri orijinalı ilə bərpa etmək cəhdləri və bu məqsədlə yaradılmış hərəkat idi. Dövrün öncül nümayəndələri pyeslərdəki tarixi reallıqları tapmağa çalışırdılar. Viktoriya dövründə diqqət çəkən bir başqa xüsusiyyət isə romanların səhnələşdirilməsi olmuşdur. Eləcə də, bu dövrdə pantomim və melodram kimi sahələr aktuallığını itirir və yox olmaq dərəcəsinə çatır. Həmçinin, dövrün əsas uğurlarından biri də qadınların artıq aktyor kimi qəbul olunmağa başlaması olmuşdur.

Viktoriya dövrü İngilis ədəbiyyatı bir çox görkəmli sənətkarlarən rəngarəng yaradıcılıqları ilə yeni çalarlara boyanmışdır. Bunlardan XIX-in dünya şöhrətli yazıçısı Çarlz Dikkens (*Charles Dickens*) ilk sırada dayanır. Bir çox yazıçı kimi Çarlz Dikkens də ədəbi karyerasına jurnalist olaraq başlamışdır. Yazıçı karyerası boyunca ingilis ədəbiyyatına böyük töhfələr verib və bir çox əhəmiyyətli mükafatlar alıb.

Dikkens “Oliver Tvistin macəraları”, “Devid Kopperfild”, “Böyük ümidlər”, “İki şəhərin hekayəti”, “Nikolas Niklbay” kimi klassik romanların müəllifidir.

Çarlz Dikkens 7 fevral 1812-ci ildə İngiltərənin cənub sahilindəki Portsmutda anadan olmuşdur. Atası Con Dikkens dəniz donanmasında məmur idi. Kiçik Çarlz ailənin səkkiz uşağından ikincisi idi. Geniş bir ailədə yaşamaq nə qədər əyləncəli olsa da, xərci də bir o qədər çox idi. Bu səbəbdən, Çarlz hələ dörd aylıq olanda ailəsi xərclərini azaltmaq məqsədilə daha kiçik bir evə köçür. 1824-cü ildə isə ata Con borcları səbəbindən həbsxanaya düşür. 12 yaşında Çarlz da ayaqqabı boyası fabrikində işləməyə başlayır. Bu illər Çarlzın heç vaxt xatırlamaq istəmədiyi xatirlələr kimi yaddaşına yazıldı. Burada 3 il işlədikdən sonra yenidən məktəbə qayıdan Dikkens iki məşhur romanını – “Devid Kopperfild” və “Böyük gözləntilər”i redaktə edir. Bundan sonra Dikkens ingilis milli ədəbiyyatının iftixar etdiyi yazıçılar arasına daxil olur. 35 illik yaradıcılığı dövründə o, ingilis ədəbiyyatın öndə gedən nümayəndələri sırasında olur və 15 roman, bir neçə hekayə, çoxsaylı oçerklər yazır.

Dikkensin yaradıclığı reallıq və fantastikanın sintezindən qidalanırdı. İngilis xalqının Dikkensi sevməsinin əsas səbəblərindən biri də məhz olunuz realist olmağı və xalqının zövqünü oxşaması idi. Dikkens əsərlərini yazarkən dövrün tələblərinə heç də uymur, o, sadəcə xalqın istədiyi ilə eyni şeyləri istəyirdi və xalqının ürəyindən xəbər verirdi.

Yaradıcılığının ilk dövrlərində Dikkens “Oliver Tvistin macəraları”, Nikolas Niklbinin həyatı və macəraları”, “Bozun oçerkləri”, “Pikvik klubunun qeydləri” kimi əsərlərini yazır. Yaradıcılığının ilk dövlərindən Dikkens artıq siyasi hadisələrlə bağlı özünün yumoristik qabiliyyətini nümayiş etdirməyə nail olmuşdu.

Yazıçının ən sevilən əsərlərindən biri 1861-ci ildə nəşr etdirdiyi mədən kəndlərindəki həyata işıq tutan “Böyük gözləntilər”dir (*Great Expectations*). Əsərin baş qəhrəmanı Filip adlı bir gəncdir. O, bacısı və ən yaxın dostu olan bacısının əri ilə birlikdə yoxsul bir kənddə yaşayır. Pipin bütün həyatı bir gecə ailəsinin məzarını ziyarət etdikdən sonra dəyişir. Meşədə rastlaşdığı əzəmətli və çirkin bir kişi ondan yemək gətirməsini xahiş edir. Həbsdən qaçmışa oxşayan bu adamdan Pip elə qorxur ki, onun xahişini

rədd edə bilmir. Amma qayıdanda onu başqa biri ilə mübahisə edərkən görür və sonrasında kişi yoxa çıxır. Tezliklə bu hadisəni unudan Pip Estella adlı bir qızla yoldaşlıq etməyə başlayır və ona aşiq olur. Bir gün Pipə sirli bir şəkildə miras alır. Pip mirasın ona Estellanın anası tərəfindən verildiyini düşünür. Lakin London olanda öyrənir ki, onun varisi bir vaxtlar meşədə yemək verdiyi qaçaq məhkumdur.

Pip artıq Londonda yaşayan bir centlmendir və bu yeni, dəbdəbəli həyata dərhal qaynayıb-qarışır. Hətta başı yeni həyatına o qədər qarışır ki, ziyarətinə gələn bacısının mehriban ərini alçaldır. Pipin keçmiş, yoxsul həyatında ən böyük dəstəkçisi olmuş dostuna qarşı bu hərəkətinə görə peşman olsa da, daha gecdir. Pipin uşaqlıq sevgilisi Estella da artıq evlənmiş, hətta ərini itirmişdir. Əsərin sonunda hər şeydən uzaqlaşıb kəndə qayıdan Pip Estella ilə qarşılaşır və artıq geri qayıtması üçün heç bir səbəb yoxdur.

Viktoriya dövrünün təsvirini verdiyi bir digər əsəri isə 1854-cü ildə yazdığı "Çətin zamanlar"dır (*Hard Times*). Bu əsər ingilis cəmiyyətini, dövrün sosial və iqtisadi problemlərini oxucuya təqdim edir. Əsərdəki hadisələr Mançesterə bənzər, lakin daha kiçik olan qondarma sənaye şəhəri Koktaunda baş verir. Dikkensin bu əsəri əvvəlkilərlə müqayisədə siyasi cəhətdən daha ümidsiz, emosional cəhətdən daha tragikdir. Əsər boyu gedən mübahisələr isə daha sərt, yumor daha sönükdür. Dikkens "Çətin zamanlar"da sənaye inqilabı nəzəriyyəsinin əsasını təşkil edən İqtisadiyyat və Utilitarizmin ünsürlərini əsərin süjet xəttindən başlayaraq, təsvirlərə və obrazların adlarına qədər incəliklə işləmişdir.

Dikkens bu romanı 1838-ci ildə Mançesterdəki pambıq fabriki işçilərinin vəziyyətinin şahidi olduqdan sonra yazır. Uşaq ürəyinə, xəyallarına, şıltaqlığına, qorxusuna sahib olmadan yaşayan bu uşaqlar Dikkensin diqqətindən kənar qala bilməzdi. Əsərdə təqdim edilən cəmiyyətdəki insanların rəqəmlər, qaydalar və formalarla qiymətləndirildiyi, hər şeyin, hətta həyatın hər qarışının pulla alınıb-satıldığı bir mülk olduğunu müdafiə edən bir həyat fəlsəfəsinin tərəfdarları və tətbiqçiləri olan şəhər adamları müəllifin qələminin sərt tənqidinə məruz qalmışdır. Roman sevməyə belə haqqı olmayan qadınların, yüksək təbəqənin boyunduruğu

altında kömür mədənlərində və toxuculuq fabriklərində çalışaraq yaşamağa çalışan işçilərin acınacaqlı həyatı bütün detalları ilə təsvir etməsi baxımından dövrünün tarixi-realist salnaməsi rolunu oynayır.

Viktoriya dövrünün qadın yazıçıları sırasında Bronte bacıları – Şarlotta (*Charlotte, 1816-1855*), Emili (*Emily, 1818-1848*) və Enn (*Anne, 1820-1849*) xüsusi yer tutur. Hər biri qələmə aldıqları əsərlərlə ayrı-ayrılıqda ün sahibi olsalar da, ədəbiyyat aləmində adları daha çox birlikdə anılır. Keşiş bir atanın qızları olan Bronte bacıları qotik ehtiras və vəhşi romantizmi əsərlərində böyük məharətlə işləyiblər. Bacılar ciddi şəkildə dövrün cinsiyyətçi rəftarları ilə mübarizə apararaq kişi təxəllüsü adları ilə əsərlərini nəşr etmək məcburiyyətində qalarkən əyləncə axtarışında olan qardaşları Branvellə problemləri yaranmağa başlayır.

Özlərindən böyük iki bacılarının məktəb-pansionda vərəmə yoluxub ölmələri səbəbindən Bronte bacıları təhsillərini evdə alırlar. Altı il evdə özləri təhsil alır və müstəqil şəkildə oxuyub öyrənməyə davam edirlər. Bundan əlavə əylənmək və söhbət etmək üçün müxtəlif oyunlar oynayır, ucsuz-bucaqsız təxəyyüllərinin yardımı ilə hadisələr fikirləşib, düzüb-qoşurdular. Yetkinlik yaşına çatdıqda isə bacılar müəllimlik və tərbiyəçiliklə məşğul olmağa başlayırlar.

Hər şeylə maraqlanan bu bacılar arasından Şarlottanın ağlına roman yazıb çap etdirmək fikri gəlir. Beləcə, onlar bədii yaradıcılıq yoluna qədəm qoyurlar. Əsas uğurlu əsəri olan “Ceyn Eyr” (*Jane Eyre*) 1847-ci ildə çap olunur. Dünya ədəbiyyatının klassiklərindən hesab olunan bu əsər qadının daxili aləminin realist təsviri ilə onun təbii istəklərinin və sosial statusunun mübarizəsindən bəhs edir. Viktoriya dövrü romanına yenilik gətirən bu əsərdə gənc yaşda yetim qalan Ceyn Eyrin onu sevməyən və ərinin istəyinə uyğun olaraq ona qulluq edən bibisi ilə çətin bir həyat yaşayır. Ciddi qayda-qanunları olan internat məktəbinə göndərilən Ceyn bu dəfə isə həyatın başqa çətinlikləri ilə üzləşməli olur. On il bu məktəbdə oxuduqdan sonra müəllim diplomu olaraq məzun olur. Edvard Roçester adlı zadəgan birinin malikanəsində mürəbbiyə kimi işləməyə başlayır. Lakin tezliklə, evin alicənab rəisi Roçesterə aşiq olur. Həyatı boyu yaşadığı çətinliklər içərisində ilk dəfə xoş və ülvi

hislər keçirməsinin həvəsi isə tezliklə yarımçıq qalır. Bu sevgisi onu təsəvvür belə edə bilməyəcəyi çətinliklər və ağrılarla üz-üzə qoyur.

XIX əsr İngiltərəsində hər cür mühafizəkarlığın hökm sürdüyü Viktoriya dövründə yaşayan "Ceyn Eyr" bir çoxları tərəfindən qadın hüquqları və azadlıqlarını müdafiə edən ilk romanlardan biri kimi qəbul edilir. Bir çox avtobioqrafik xüsusiyyətlər daşıyan bu romanda Şarlotta Brontenin həyatından izlər özünü göstərməkdədir. "Ceyn Eyr" romanı təkcə kişilərin üstünlük təşkil etdiyi cəmiyyətdə qadınların mövqeyinə cəsarətli yanaşması ilə deyil, həm də poetik sentimentallığı müasir realizmlə birləşdirən ifadəsi ilə də prioritet olmağı bacarmış şah əsərlərdəndir.

Ədəbi tənqidçilər tərəfindən bəzi anti-katolik xüsusiyyətlərinə görə narazılıq yaratsa da, roman tez bir zamanda uğur qazanır. Roman, həm də müxtəlif janrları özündə birləşdirməsi baxımından da əhəmiyyət kəsb edir. Belə ki, Ceynin cinsi ehtiyacları və etika arasında seçim etməsi çox güclü şəkildə mənəvi realizm janrına aid edilir. Bununla belə, onun evlilikdən qaçması və Roçesterin ilk və əqli fəaliyyətini tirmiş həyat yoldaşının alovlar içərisindəki ölümü qotik janrın xüsusiyyətidir.

Şarlottanın kiçik bacısı olan Emili Bronte 1848-ci ildə vəfat edəndə dünya ədəbiyyatının ən gözəl romanlarından biri olan "Uğultulu təpələr"i özündən geridə qoyub getdi. Bəzi tənqidçilərə görə Viktoriyan dövrü əsəri olan "Uğultulu təpələr" bütün zamanların ən böyük məhəbbət romanıdır, bəzilərinə görə isə hər oxunduqda fərqli zövqlər verən əsrləri aşmış bir roman yaxud dərinlərə nüfuz edən ifadəliliyi ilə xarakterizə olunan uzun bir şeirdir.

Emili Brontenin ölümündən bir il əvvəl bitirdiyi "Uğultulu təpələr"dəki obrazlar sadəcə uydurma insanlar deyil, həm də Brontenin ətrafındakı real insanlardan dərin izlər daşıyan həqiqi şəxslərdir. Sevgi, kin, nifrət və qisas kimi güclü duyğularla toxunan bu gənclik hekayəsi cəmi otuz yaşında vərəmdən dünyasını dəyişən çox həssas, ailə həyatı qurmamış gənc Emili Brontenin bütün canlılığını daşıyır. Oxucunun yaşına, təcrübəsinə, həssaslığına görə dəyişən, müxtəlif vaxtlarda

oxunduqda fərqli zövqlər verən, təkrar-təkrar oxumaq həvəsi yaradan klassik bir əsərdir.

Hindli Ernşou (*Hindley Earnshaw*) və Ketrin Ernşou (*Catherine Earnshaw*) valideynləri ilə birlikdə İngiltərədə yaşayan bacı-qardaşdır. Ataları işgüzar səfərdən qayıdanda Hitklif (*Heatcliff*) adlı qaraçı bir oğlanı evlərinə gətirməzdən əvvəl onların olduqca normal həyatı var idi. Küçədə gördüyü bu uşağa yazığı gələn ata onu uşaqları ilə böyütmək üçün evə gətirir. Hindli ilk andan etibarən Hitklifi sevməsə də, Ketrin onu çox sevir. Ata Ernşounun da Hitklifə qarşı qəribə bir həssasiyyəti olur.

Ataları cənab Ernşou öldükdə isə arxasında işə yaramaz Hindlini və bir-birini dərindən sevən Hitklif və Ketrini buraxır. Bir axşam Ketrin dayəsi Nelli ilə söhbət edərkən Hitklifi sevdiyini, lakin onun kimi cahil bir adamla evlənmək əvəzinə onların qonşu malikanəsində yaşayan Edqar Lintonla evlənməyi üstün tutduğğunu deyir. Bu vaxt onların söhbətini eşidən Hitklif arxasına baxmadan qaçıb oradan uzaqlaşır. İllər sonra Hitklif alicənab və zəngin bir centlmen olaraq geri qayıtdıqda isə Ketrin artıq Edqarla evlənmiş və qonşu malikanəyə köçmüşdür. Artıq Hitklif qəddar və məkrli biridir və tək məqsədi hər iki ailədən qisasını almaqdır. Bunun üçün Edqar Lintonun bacısı İzabellanı başdan çıxararaq onunla evlənir və ona dəhşətli acılar yaşadır. Təngə gələn İzabella oğlunu da götürüb cənuba qaçır. Hitklif isə Uğultulu təpələrdə Hindli ilə birlikdə yaşamağa başlayır. Hindli öldükdən sonra isə onun oğlu Haretonu qəyyumluğa götürür və onu ən pis şəkildə böyüdür. Ketrinsə illər sonra ilk övladını dünyaya gətirərkən ölür. Anasına çox oxşayan bu kiçik qıza atası Edqar anasının adını qoyur. Edqar qızı Keti ilə təsəlli tapır və ona bütün sevgisini verir və onu ən yaxşı şəkildə böyüdür.

Ketrinin ölümündən bir neçə il sonra İzabella da ölür. Ölümündən əvvəl o, qardaşını yanına çağıraraq oğlu Lintona onun baxmasını istəyir. Çox xəstə və zəif bir oğlan olan Lintonu Keti ilə evləndirmək istəyən Hitklif bu yolla Edqarın ölümündən sonra onun bütün mirasına sahib çıxmağı planlayır. Böyük səydən sonra buna nail olsa da, bir müddət sonra Hitklif ölür və Keti Hareton ilə qovuşaraq daha yaxşı bir həyat yaşamağa başlayır.

Bacıların ən balacası olan Enn isə “Aqnes Qrey” (*Agnes Grey*) əsəri ilə tanınır. Bu əsərdə Enn Bronte Viktoriya dövrü İngiltərəsində sosial təbəqələr arasında ilişib qalmış bir mürəbbiyənin həyatından bəhs edir. Digər bacıları Emili və Şarlottadan fərqli olaraq, daha birbaşa və sadəlövh üslubda yazan Enn öz şəxsi həyatından səhnələri də əsərlərində material olaraq istifadə etmişdir. Ciddi sinfi ayrıseçkilik və aşağı təhsil səviyyəsinin olduğu Viktoriya dövründə Bronte bacıları yaxşı təhsil almaqlarına baxmayaraq təvazökar bir həyat sürürdülər. Onlar romanlarını pastoral həyat, münasibətlərdə görünməyən qayda-qanunlar, kobud, təbii, lakin azad ruhlar, əxlaqi mühakimələr üzərində qurub, əsərləri ilə cəmiyyətlərinin dəyişilməsinə töhfə veriblər. İntellektuallıq, emosional aclıq və əxlaqi məsuliyyət arasında qurulmağa çalışılan tarazlığı əks etdirən “Aqnes Qrey” əsəri ictimai həyata daxil olmağa çalışan qadınlar üzərindəki realist müşahidələrini təqdim etməklə romantik klassikanın hüdudlarından kənara çıxmaqdadır.

Üç bacı arasında ən sadəlövh, ən mehriban, ən mülayim ruha malik olan Ennin kitabları da eyni xüsusiyyətlərə malikdir. “Şarlotta Brontenin Gizli Gündəlikləri” kitabından məlum olduğu kimi Enn həqiqətən sadəlövh və həssas insan olub. Onun obrazları özü ilə xarakter, şəxsiyyət və zahiri görkəmcə çox oxşardır və Enn Bronte məhz Aqnes Qreyə bərabərdir deyə bilərik.

Aqnes Qrey bir keşişin qızıdır. O, təvazökar, özünə qapalı və optimist gənc bir qadındır. Atası mülklərini itirdiyinə görə, onlar iqtisadi cəhətdən pis vəziyyətə düşür və Aqnes işləməyə qərar verir. O, mürəbbiyə kimi fəaliyyət göstərməyə başlayır və getdiyi yerdə imkanlı ailənin ərköyün uşaqlarının şıltaqlıqları ilə məşğul olur. Əsərin bu hissəsində sinfi fərqlərinin və dövrün böyük təsiri hiss olunur. Lakin tələbələrinin çətinliklərinə baxmayaraq inadla müəllim olmağa çalışarkən Aqnesin başına gələnləri təqdim edən əsərdəki təsvirlər də qeyri-adidir. Enn Brontenin oxucu ilə söhbət edirmiş kimi yazdığı fəsillər o qədər də diqqət çəkmir, əksinə bəzən oxucunu güldürür. Təslim olmadan dik duran qəhrəmanımızın hekayəsi xoşbəxt sonla bitir. Erkən yaşda dünyasını dəyişən müəllif Ennin əksinə olaraq Aqnes ən azından xoşbəxtliyini tapır.

Kitabda dövrün Britaniya cəmiyyətində zəngin və zadəgan ailələrinin həyatlarını, sevgi və evlilik münasibətlərini, maddiyyata verdikləri önəmi detallarıyla görmək mümkündür. Müəllif bu əsərində evliliyin səhv başa düşülən vəziyyətini müxtəlif personajları vasitəsilə göstərmişdir. Bu, Viktoriya dövrünün qadın yazıçılarının tez-tez müraciət etdikləri mövzulardan biridir. Enn Bronte həmçinin yuxarı təbəqədən olan insanların digərlərini necə aşağı gördüklərini və onlara məhəl qoymadıqlarını da təsvir etmişdir. Eləcə də, kitabda keşiş olan atalarının təsiri ilə din və onun əhəmiyyəti, uşaqların düzgün təlim və təhsili ilə bağlı məsələlər də qeyd olunmuşdur.

Viktoriya dövrünün bir digər qadın yazıçısı əsl soyadı Stivenson olan Elizabet Qaskelldir (*Elizabeth Gaskell, 1810-1865*). Ailə həyatı qurduqdan sonra Qaskell soyadını götürən Elizabet nazir olan həyat yoldaşının işinə görə cəmiyyətin müxtəlif təbəqələri ilə yaxın təmasda olurdu. Bu sayədə, xüsusən, aşağı təbəqədən olan yoxsul insanlarla ünsiyyətdə olma şansı qazanırdı. Ədəbi yaradıcılığında da məhz Mançesterdəki sənaye həyatını və cəmiyyətini təsvir etmiş Qaskell dövrünün görkəmli simalarından olan Şarlotta Brontenin bioqrafiyasını da yazmışdır. Dövrün öncülllərindən olan Çarlz Dikkensin dəstəyi sayəsində əsərləri nəşr olunan Elizabet Qaskel XIX əsr ingilis ədəbiyyatında özünəxas yer tutmağa nail olmuşdur.

1854-cü ildə nəşr olunan "Şimal və Cənub" (*North and South*) əsəri dövrün əsas sosial problemlərini və coşğun bir sevgi hekayəsini təsvir etdiyindən müəllifi Elizabet Qaskellə dünya şöhrəti qazandırır. Baş qəhrəman Marqaret Heyl həyatının baharındaykən başqa bir həyata keçid etməli olan gənc bir qızdır. O, qarşısına çıxan və öhdəsindən gəlməli olduğu problemlərə tapdığı həllərlə dövrünün oxucuları üzərində intellektual inqilab həyata keçirmiş əsl qəhrəmandır.

Öz camaatlarının keşişi olan Marqaretin atası həyatında baş verən dəyişikliklərdən və şahidi olduğu dəhşətli iztirablardan sonra az qala imanını itirmə nöqtəsinə gələn bir insana çevrilir. Sosial məsələləri cəsarətlə təqdim edən, eləcə də iki gözəl personaj arasındakı məhəbbətdən bəhs edən bu əsər işçi və həmkarlar

ittifaqı üzvü olan Nikolas Hiqqins (*Nicholas Higgins*) və keçmiş keşiş cənab Heyl kimi möhkəm xarakterlər vasitəsilə daha da gücləndirilmişdir.

Bu əsər dahi yazıçı Çarlz Dikkensin əlinə keçdikdə adı baş qəhrəmanın adına uyğun olaraq "Marqaret Heyl" idi. Lakin Dikkens əsəri diqqətlə oxuyub, heyran qalır və Marqaretin xarakterindəki zidd qütblükləri təmsil etməsi məqsədilə onun "Şimal və Cənub" olmasını təklif və təkid edir. Qaskell bu təklifi qəbul edir və 1855-ci ildə Dikkensin nəşriyyatında çapdan bu adla və bəzi düzəlişlərlə çıxır.

Əsərdəki hadisələr cənubda başlayır. Helston şəhərində yaşıllıqlar arasındakı kiçik bir keşiş evində ata, ana, qızları Marqaret və qulluqçuları ilə birlikdə təvazökar bir həyat yaşayan ailənin həyatı ata Heylin ailəsinə kilsənin bəzi qaydalarının onun üçün həddən artıq çox olduğuna görə keşİşliyi buraxdığı deməsi ilə dəyişir. Ailə şimaldakı sənaye şəhərciyi olan Miltona köçməli olur. Marqaret cənubu çox sevirdi və bu səbəbdən şimala qarşı əvvəlcə qərəzli münasibət göstərir. Bu sənaye şəhərciyindəki həyat və insanlar əvvəlcə ona çox kobud görünürdü, çünki buradakı həyat nə sakit idi, nə də dinc. Burada fabriklərin gərgin iş rejimində toxu parçaları istehsal etdiyi, iddialı rəislər, qəzəbli və partlamağa hazır işçilərin olduğu II sənaye inqilabının çiçəklənmə dövrü hökm sürürdü. Savadsız lakin bir o qədər ticari zəkaları olmalarına görə əlləri pulla oynayan rəislər və çox cüzi maaşla gündə ən azı 10 saat işləyən işçilər və onların ailələri arasındakı uçurum əsərdə detallı təsvir edilmişdir.

Marqaretin atası burada dərs verməklə keçimlərini təmin edirdi. Onun tələbələrindən biri isə qonşuluqdakı ən tanınmış və sərt fabrik sahiblərindən biri olan Con Tornton (*John Thornton*) olur. Con Tornton soyadından da göründüyü kimi kənardan gül tikanı kimi sərt və incidici görünsə də, zamanla bir-birlərini tanıdıqca tərəflərin qərəzli münasibətləri azalır. Bir müddət sonra onlar arasında sevgi yaransa da, araya izaholunmaz bir sirrlə çox ağrılı təcrübələr girdiyindən ikili bir-birindən uzaqlaşaraq kədərli günlər, cavabsız suallar və qəribə hadisələr yaşayırlar. Lakin əsərin sonunda uzun həsrət və intizardan sonra cütlük xoşbəxtliyi bir-birində tapırlar və qovuşurlar. Qaskellin bu əsəri ənənəvi məhəbbət romanı olmayıb, tənqidçilər

tərəfindən dövrün ictimai-sosial problemlərini əks etdirən sosial janrda yazılmış ciddi klassik əsər hesab olunur.

Dövrün digər bir görkəmli nümayəndəsi müasir ingilis romanının qurucularından sayılan yazıçı və şair Tomas Hardidir (*Thomas Hardy, 1840-1928*). Erkən uşaqlıq illərindən şeirlər yazmağa başlayan Hardinin ilk əsərləri sosialist dünyagörüşü və tənqidi üslubuna görə naşirlər tərəfindən rədd edilir. Hardinin yaradıcılığı incə yumoru və həssas izahları ilə seçilir. Viktoriyan dövrünün əski mühafizəkar dəyərlərinə qarşı çıxan əsərlər yazdığına görə Hardi tənqidə məruz qalır. Buna görə yenidən şeirə qayıtsa da, tezliklə yenidən romanları ilə şöhrət qazanmağa nail olur. Lakin Tomas Hardinin şah əsəri 1891-ci ildə yazdığı "İtirilmiş məsumluq" (*Tess of the d'Urbervilles*) hesab olunur.

Kasıb bir ailənin əslində əsilzadə bir əcdada aid olduğunu öyrənməsindən sonra saf və sadəlövh Tess Darbeyfild (*Tess Durbeyfield*) tənbəl atası və cahil anası tərəfindən əcdadlarının adı Derbervil (*d'Urberville*) olan yaxınlıqlarındakı varlı ailəni çağırmaq üçün göndərilir. Cazibədar və günahsız Tess ədəbsiz Alek Derbervil tərəfindən aldadılır və gizli şəkildə körpəykən ölən (*Sorrou*) Sorrow adlı bir uşaq dünyaya gətirir. Bir müddət sonra toy gecəsi onun keçmişi haqqında öyrəndikdən sonra Tessi rədd edən idealist bir bəy olan Encel Kler (*Angel Clare*) ilə tanış olur və onunla evlənir. Emosional cəhətdən yoxsul və maddi cəhətdən aşağı olan Tess zərurətlərdən dolayı bir daha Derbervilə təslim olsa da, Encel geri qayıtdıqda onu öldürür.

Viktoriya dövrü İngilis ədəbiyyatının əsas nümayəndələrindən biri isə Uilyam Meykpis Tekkereydir (*William Makepeace Thackeray, 1811-1863*). Dövrünün ruhunu realist şəkildə əks etdirmiş, öldürücü satirası, yumor gücü, sərhədsiz xəyal gücünə və ifadə tərzinə görə seçilən Tekkerey ilk dəfə Viktoriya dövrü ingilis ədəbiyyatında təbiət və xarakterlərin qarşılıqlı əlaqəsini təsvir etmişdir. Realizmin inkişafına böyük töhfə vermiş Tekkerey erkən yaşlarından ədəbiyyata maraq göstərmişdir. İlk uğurlu əsəri "Bari Lindonun şansı" (*The Luck of Barry Lyndon, 1844*) olsa da, yazıçıya şöhrət gətirən əsəri "Snobların kitabı" (*The Book of Snobs,*

*1848*) olur. İngilis ictimai-siyasi həyatının ətraflı təsvir edildiyi bu əsər Snoblar haqqında oçerklər silsiləsindən təşkil olunmuşdur. Dünya ədəbiyyatında ali silkin zövqünü və modasını təqlid etməyə çalışan, özündən vəzifəcə yüksəkdə olanlara təzim edən, özündən aşağıdakılara yuxarıdan aşağı baxan, cəmiyyətdə əsl təbiətinə zidd olan rollarla maskalanmış şəkildə oynayan lovğa insan olan snob obrazını yaratmağa nail olmuşdur. Lakin, Tekkerey özünü də snob sinfinə aid edirdi.

Tekkereyin yaradıcılığında xüsusi əhəmiyyət daşıyan əsəri isə "Şöhrətpərəstlik yarmarkası" (*Vanity Fair*) romanı olmuşdur. Viktoriya dövrü ingilis cəmiyyətinin iç üzünü, problemlərini və reallıqlarını detallı şəkildə əks etdirmiş bu roman cəmiyyətdəki təbəqələşməni və təbəqələrarası ziddiyyətləri məhz həmin obrazın öz dili ilə açıb göstərmişdir. Tekkerey bu əsəri ilə həmin insanların maskalarını salaraq bütün çılpaqlığı ilə əsl simalarını göstərmişdir. Əsərin süjetini bir-birinə zidd xarakterlərə malik iki yaxın qız yoldaşın və onları sevən və sevməyən kişilərin mübarizə təcrübələri ilə qarışmış sevgi macəraları təşkil edir. Ameliya üzüyola və itaətkar olduğu halda, dostu Beki şəhvətli və şöhrətpərəstdir.

Əsərin süjet xəttindən əlavə olaraq bir Yarmarka təsvir olunur. Bu yarmarkanın idarəsi bir Kuklaoynadandadır. Kuklaoynadan ilk olaraq tamaşaçıları başına yığıb onlara kuklaları Rebekka, Emili və Dobbini təqdim edir. Beləliklə, əsərin əsas hadisələri cərəyan etməyə başlayır. Tekkereyin təsvir etdiyi bu şöhrətpərəstlik yarmarkasının sakinləri pulu hər şeydən üstün tutur və mövqe dalınca qaçaraq insani dəyərlərini yaddan çıxarırlar. Bu yarmarkanın sakinləri insanları bankdakı hesabları, titulları və nələrini qurban vermək bacarıqlarına görə qiymətləndirirlər.

Tekkerey qəhrəmanlarına istehzayla yanaşır və onları oxucuya bütün mənfilikləri ilə təqdim edir. Bu əsərdə Tekkerey həm müəllif, həm də kukla tamaşasının rejissorudur. Hadisələrin şərhçisi rolunda çıxış edən müəllif tamaşanın nümayişi zamanı izləyicilərə müraciət tonunu dəyişərək bəzən məzəli yumoristik, acı istehzalı, satirik ifşadan istifadə etmişdir. Aristokrat ailələrin təsvirini verməklə onların acgözlükləri və ehtirasları xatirinə doğmalarına belə düşmən ola bildikləri göstərilmişdir. Roman boyu burjua təbəqəsinə mənsub Ameliya və aristokrat mühitə

mənsub olmağa can atan Rebekkanın taleyi fonunda Tekkerey XIX əsr ingilis cəmiyyəti və həyatının ironik mənzərəsini yaradır, talelərinin sosial mühitlə əlaqəsini açıb göstərməyə çalışır.

Beləliklə, məlum olur ki, Viktoriya dövrünün nümayəndələri əsasən öz dövrlərinin cəmiyyətinin mövcud problemlərini və həqiqətlərini əks etdirmişlər. Bəzi yazıçılar bunu açıq şəkildə tənqid edərək, bəziləriysə mətnaltı və dolayısı yolla həyata keçirmişlər. Bu dövrün sənətkarları özlərinə layiqli şəkildə yer tapmışdırlar. Bunu müasir Britaniya ədəbiyyatının daxilində hələ də Viktoriya dövrünün qalıqlarında görmək mümkündür. Ümumən isə, konservativ Viktoriya dövrü təkcə ingilis ədəbiyyatında yox, dünya ədəbiyyatında da silinməz izlər qoymuşdur.

## 1.2. Corc Eliot yaradıcılığı və Viktoriya

Əsl adı Meri Enn Evans (*Mary Ann Evans*) olan Corc Eliot (*George Eliot*) Viktoriya dövrü İngilis ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Dövrünün tələbələrinə uyğun olaraq o, qadın kimliyini gizləmiş, Corc Eliot təxəllüsü ilə əsərlərini qələmə almışdır. XIX əsr ingilis qadın yazıçılarından biri olan Corc Eliot 1819-cu ildə İngiltərənin Uoruikşayr bölgəsində dünyaya göz açmış və həyatının ilk 21 ilini kənddə keçirmişdir. Bu illərdə gələcək yazıçı insanları və ətrafı yaxından tanıma imkanı əldə edir. Dini, əxlaqi və siyasi cəhətdən azad bir mühitdə böyüməsi ona sərbəst qərar vermək imkanı qazandırdı. Sənətkar atasının ölümündən sonra İsveçrəyə, sonra Londona köçərək bir neçə jurnalda çalışmışdır. Bu dövr ərzində Eliot dövrünün öndə gedən yazıçıları ilə yaxından tanış olmaq imkanı əldə edir. Məşhur jurnalist Corc Henri Lyus ilə dostluğu Eliotu roman yazmağa sövq etmişdir. [4]

Corc Eliot ədəbi həyata yazdığı tənqidlər və tərcümə işləri ilə ilk addımını atmışdır. İlk hekayəsi isə 1852-ci ildə yazdığı “Din Adamının Həyatından Səhnələr”, ilk romanı isə “Adam Bede”dir. Bundan sonra, ard-arda qələmini roman üzrə sınayan

Eliot "Floss çayı üzərində dəyirman", "Romola", "Sayles Marner" və şah əsəri "Middlmarç"ı çap etdirir. Realist yazıçının yaradıcılığının ən xarakterik xüsusiyyətlərindən biri psixoloji təhlil bacarığıdır. Eliotun bütün romanlarında əxlaqi bir yüksəliş duyğusu, bir ədalət sevgisi sezilir. Yazıçı əsərlərindəki hər hadisə və personaja xoş və genişürəkliliklə baxmışdır.

Yazıçının III romanı 1861-ci ildə yazdığı və kilsə doktrinaları və Avropanın sosial həyatı haqqında əhəmiyyətli məlumatlar verən "Sayles Marner"dir (*Silas Marner*). Romandakı hadisələr XIX əsrin ilk illərində İngiltərənin şimalındakı gecəqondu məhəlləsi olan Lantern Yardda cərəyan edir. Kiçik bir Kalvinist icmasının üzvü olan Sayles Marnerin dinə hədsiz marağı olduğundan ətraf mühiti tərəfindən nüfuzlu bir şəxs kimi qəbul edilməkdədir. Saylesin Uilyam Den (*William Dane*) adlı biri ilə yedikləri-içdikləri ayrı getməyən və on ildən artıq müddətdir davam edən dostluq münasibəti vardır. Dostların fikirləri bəzən üst-üstə düşməsə də, mütləq şəkildə bir-birlərinə anlayış göstərirdilər. Saylesin həyatında əsas yer tutan şəxslərdən biri də yaxın zamanda nişanlanacağı sevgilisi Saradır (*Sarah*). Sevgililər arasıdakı tək problem Saylesin keçirdiyi krizlər idi. Çox gec-gec hallarda olan və təxminən on dəqiqə boyunca davam edən bu krizlər Saylesi həyatdan təcrid edirdi. Əksər insanlar onun keçirdiyi krizləri dinlə bağlı bir hadisə kimi qəbul edirdi və dostu Uilyam isə kriz anlarında Saylesin içinə şeytanın girdiyini və ona pis şeylər etdirdiyini düşünürdü. Sara da bu vəziyyəti elə də böyük bir problem kimi görməsə də, onun üçün də yaxşı deyildi.

Bir gün çox yaxın münasibətləri olan keşiş xəstələnir. Sayles və dostları isə xəstənin yanında növbətçi dururlar. Birdən içəriyə bir neçə adam girərək Sayləsə bir cib bıçağı göstərərək ona aid olub-olmadığını soruşdular. Bıçağı heç vaxy görmədiyini deyən Saylesə dostu Uilyam məsələnin əslini izah edir. Xəstə yatağında yatan kişinin qızılları itibmiş və pul kisənin tapıldığı yerdə Saylesin cib bıçağı var imiş. Oğurluqla ittiham olunan Sayles eşitdiklərinə inana bilmir və etirafı edənin ən yaxın dostu Uilyam olmağı onu dərindən sarsırdı. Sayles yalan yerə bu oğurluqda təqsirkar hesab edildiyini desə də, tapılan iki dəlil – cib bıçağı və onun evindəki pul

kasası onun sözlərini təkzib edirdi. Əslində isə, Sayles oğurluq hadisəsindən qısa müddət əvvəl öz bıçağını ən yaxın dostu Uilyama vermişdir. Bu səbəbdən Uilyamın Saylesə qarşı bir oyun qurduğuna dair güclü iddiası mövcuddur. Uca Tanrının bütün bu prosesi idarə edəcəyinə və həqiqəti bərqərar edəcəyinə inanan Saylesin ümidləri puça çıxır və qısa bir müddət ərzində hamı tərəfindən günahkarın o olduğu qəbul edilir. Bu hadisə azmış kimi Sara nişanı pozur və bir həftə içində Uilyam ilə evlənir. Bütün həyatı alt-üst olan, Tanrıya olan inamı itən və qəlbi qırılan Sayles Lantern Yardı tərk edir. Cənub istiqamətində Midlendlərə səyahət edər Sayles Uorvikşirin (*Warwickshire*) Ravelo (*Raveloe*) adlı heç kimin onu tanımadığı bir kəndə köçür.

Burada ən yaxşı bacardığı iş olan kətan toxuculuğu ilə məşğul olan Sayles heç kimlə danışmır, salam belə vermirdi. Digər insanlarla minimal kontakta girərək təcrid olunmuş və tənha bir həyat sürməyi qərara alan Sayles özünü bütün qəlbi ilə sənətinə həsr edir. Lakin tez bir zamanda hərkəs onun istedadını görür və bütün kətan toxumalarını ona etdirirdilər. Sayles kiçik bir daş evdə yaşayır və sadəcə işiylə məşğul olaraq günlərini keçirdir. Kənd əhli ona o qədər çox iş verir ki, Sayles bir anda artan sərvəti qarşısında gözlərinə inana bilmir. Beləcə, Sayles qarşısına daha çox qızıl yığmaq məqsədini qoyur. Yaşadığı bütün ağır günlərinə rəğmən onu xoşbəxt edən tək şey hər gecə evə gələndə baxmaqdan doymadığı sərvəti və bu bacarığından ötrü özünə duyduğu heyranlıq idi. Sayles qızıllarını qumun altında basdırdığı kərpiclərin içində gizlədirdi və heç vaxt evini kilidləmədən çölə çıxmırdı. Lakin bir dəfə dumanlı gecələrin birində Sayles çox təcili çölə çıxmalı olur və qapını kilidləmir. Həmin vaxt isə onun iki kisə qızıllı kəndin əsas torpaq sahiblərindən olan mülkədar Kassın əxlaqsız kiçik oğlu Danstan Kass (*Dunstan Cass*) tərəfindən oğurlanır. Kisələrinin oğurlandığını anlayan Saylesə kəndlilər nə qədər köməklik göstərsə də, o, dərin depressiyaya düşür.

Kəndin ən zəngin ailəsinin oğlu olan Danstan və qardaşı Qodfri Kass (*Godfrey Cass*) atalarının mal-mülkünü bir-birləri ilə paylaşa bilmirdilər. Danstanın böyük qardaşı Qodfri Kassın hərkəsdən gizlətdiyi bir sirri var. O, ailəsindən xəbərsiz bir evlilik edib və bu evlilikdən bir uşağı da var. Qodfri başqa bir şəhərdə yaşayan, işçi

təbəqəsinə məxsus, tiryək aludəçisi olan arvadı Molli Farrendən (*Molly Farren*) tamamilə uzaqlaşıbdır. O artıq kəndin ən gözəl qızı olan Nensi Lammetrlə (*Nancy Lammeter*) münasibət yaşayır. Lakin bu sirri Qodfrinin gənc Nensi ilə evlənməyinə mane olur. Bu sirri tək bilən qardaşı Danstandır və onu həmişə təhdid etməkdədir. Qodfri isə susmağı qarşılığında əlində olan bütün pulunu ona verməkdədir. Bir gün Danstan qardaşından sevimli atını satmağını istəyir. Daha baha qiymətə satmaq üçün isə satış prosesini özünün edəcəyini deyərək atı ondan götürür. Lakin Danstan atı yaralayır və ölümünə səbəb olur. Qodfriyə olanları deməkdən qorxan Danstan atın pulunu düzəltmək üçün Saylesin evinə girərək onun qızıllarını oğurlayır. Danstan bu hadisədən sonra yoxa çıxır, lakin o, əvvəllər də bir neçə dəfə yoxa çıxdığı üçün camaat onun yoxluğundan başqa mənalar axtarmır.

Aradan illər keçir və bir qış gecəsi Molli özünün Qodfrinin arvadı olduğunu elan etmək üçün iki yaşlı qızı ilə birlikdə Kassların Yeni il şənliyinə getməyi qərara alır. Yoldaykən o, qarda yıxılır və huşunu itirir. Yolunu itirən uşaq Saylesin evinə gəlib çıxır. Sayles uşağın qardakı addımlarını izləyərək anasını tapır. Lakin qadın artıq ölmüşdür.

Sayles yardım üçün Kassların evinə qaçır və ziyafətdə olan Qodfri dərhal qəza baş verən yerinə gedir. Amma qərara alır ki, heç kimə Mollinin onun arvadı olduğunu söyləməsin. Beləliklə, Mollinin ölümü Qodfri və Nensi üçün əlverişli şərait yaradır.

Sayles uşağı saxlamağa başlayır və ona mərhum anası və bacısının şərəfinə Eppi (*Eppie*) adını verir. Eppi Saylesin həyatını tamamilə dəyişir. Sayles maddi cəhətdən qızıllarını itirsə də, o, qızıl saçlı bu uşaq şəklində simvolik olaraq həmin qızılları geri qazandığını düşünür. Qodfri artıq Nensi ilə evlənməkdə azaddır, lakin əvvəlki evliliyi və övladı olmağını ondan gizlətməyə davam edir. Lakin Saylesə arabir maddi yardım edərək Eppinin qayğısına qalmaqda ona kömək edir.

Uşağın tərbiyəsində daha praktik kömək və dəstəyi isə Saylesin mehriban qonşusu Dolli Uintrop (*Dolly Winthrop*) edir. Dollinin köməyi və məsləhətləri Saylesə təkcə Eppini yetişdirməkdə yox, eləcə də onların kəndə inteqrasiya etmələrində əsas vasitə olur.

Aradan on altı il keçir və Eppi artıq böyümüş və kəndin fəxri olmuşdur. Eppinin kənd camaatı arasında özünə yer tapmağında və həyatda məqsəd tapmağında böyük əməyi olan Sayles ilə aralarında çox möhkəm bağları vardır. Bu müddət ərzində Qodfri və Nensi doğulan körpələrinin ölümünə yas saxlayır və uşaqsız bir həyat yaşayırlar. Bir gün Saylesin evinin yaxınlığındakı daş karxanasının aşağısında oğurladığı qızıllarla birlikdə Danstan Kassın skeleti tapılır və qanuni çərçivədə pul Saylesə geri qaytarılır. Bu xəbəri eşidən Qodfriyə tamahı güc gəlir və bütün insani hislərini tərk edərək Nensiyə mərhum Mollinin onun birinci arvadı olduğunu və Eppinin isə onun uşağı olduğunu etiraf edir. Qodfri Eppiyə hər şeyi etiraf edir və arvadı ilə birlikdə Saylesə uşağın centlmen qızı kimi böyüməsi üçün öz ailələrinə daxil olmağını təklif edirlər. Bu halda, Eppi Saylesi tərk etməli və onlarla yaşamalı olacaqdır. Eppi bu təklifə nəzakətli, lakin bir o qədər qətiyyətli şəkildə rədd edir. Əsərdə Eppinin bu məsələyə cavabı diqqəti çəkir: "I can't think o' no happiness without him" (*Mən onsuz heç bir xoşbəxtliyi təsəvvür edə bilmərəm*).

Sayles Lantern Yarda yenidən qayıdır. Artıq onun əvvəlki məhəlləsi tamamilə dağıdılıb, yerində böyük bir zavod tikilib. Lantern Yard sakinlərinə isə nə olduğunu heç kim bilmir. Bununla belə, Sayles heç vaxt öyrənə bilməyəcəyi bu məsələdən razı qalır və artıq öz ailəsi, dostları ilə xoşbəxt bir həyat sürür. Əsərin sonunda Eppi birlikdə böyüdüyü Dollinin oğlu Aaronla (*Aaron*) evlənir və onlar Qodfrinin yeni evinə köçürlər. Artıq yaşlanmış Saylesin illər boyu Eppiyə göstərdiyi qayğı hər kəsə sevinc bəxş etdi və böyüyən ailə birlikdə xoşbəxt bir həyat sürdülər.

Yazıçının üçüncü romanı olan "Sayles Marner" 1861-ci ildə çap olunmuşdur. Zahirən kətan toxucusu işləyən Sayles Marnerin sadə nağılı kimi görünən bu roman güclü realizmi və dindən sənayeləşməyə, cəmiyyətə qədər müxtəlif mövzuları incəliklərinə qədər işləməsi ilə diqqət çəkir. Bir çox tədqiqatçı bu romandakı hadisələrin Eliotun şəxsi həyatı ilə əlaqəsi olduğunu və bu səbəbdən bioqrafik xüsusiyyətlər daşıdığını düşünür. Eliot romanın strukturunu qurarkən protaqonist Saylesə paralel və zidd olacaq obraz kimi antaqonist qismində Qodfrini təqdim edir. Əsərdə bir çox bəşəri problemlərə toxunulmuşdur. Buna nümunə olaraq isə çağdaş

dövrümüzdə aktuallıq kəsb edən özgələşmə ideyasını göstərmək olar. Romanın alt qatındakı məsələlərə nəzər saldıqda Sayles və Kass qardaşlarının ziddiyyətli talelərində məsuliyyət daşıdıqları və daşımadıqları davranışlarının təzadları ilə yanaşı, real kontekstdə yer alan mif və əfsanənin dərinlikdəki izləri üzə çıxır. Romanın süjet xətti və obrazların taleləri kontekstində təsadüf ideyaları və və Darvinist düşüncə də tədqiq edilmişdir. Corc Eliotun bütün romanları içərisində ən sevdiyi əsər olan “Sayles Marner” yumor, güclü simvollar və sosial tənqid vasitəsilə kənd həyatını həssas, lakin duyğusal olmayan bir ustalıqla təsvir etməkdədir.

Romanı təhlil etdikdə məlum olur ki, əsərdəki əsas mövzulardan biri tənhalıqdır. Bu tənhalıq əsərdə həm fiziki, həm də zehni formada özünü göstərməkdədir. Belə ki, Sayles özünü fiziki olaraq izolyasiya etmiş və tənhalığı seçmişdir. Qodfri isə daha çox zehni tənhalıq yaşayır. Həqiqətləri açıb deyə bilmədiyi zamanlarda Qodfri zehnən tənhalıq keçirir.

Eləcə də, əsərdə güvənsizlik mövzusu özünü bir çox aspektdən göstərməkdədir. Belə ki, Saylesin pullarına olan vurğunluğu yəni, cansız varlığa olan bağlılığı onun insanlara olan güvənsizliyinin əsas sübutlarındadır. Burada pul bir növ, Saylesin cəmiyyətdən qopub, qaranlığa qərq olmağını simvolizə edir. Çünki, sahib olduğu qızıllar insanlar kimi ona xəyanət etmir, və onu tərk etmirlər.

Bundan başqa, Saylesin bütün günü işlədiyi toxucu dəzgahı da əsərdəki əsas simvollardan biridir. Saylesin əsas gəlir mənbəyi olmağı ilə birlikdə, bu dəhgah həm də, onun tənhalığını və çalışqan təbiətini xarakterizə edir. Saylesin izolyasiya olunmuş həyatındakı bu toxucu dəzgahı bir növ hörümçəyin metaforasıdır. Belə ki, Sayles bir hörümçək kimi iri gözləri ilə daim dəzgahında toxumaqla məşğuldur.

Romandakı əsas simvollardan biri isə Eppidir. Saylesin yaşadığı daş ev soba vasitəsilə nə qədər isinsə də, o, yuva deyildi. Saylesə itirdiklərinin qarşılığı olaraq Tanrının bir lütfü, hədiyyəsi kimi bəxş edilən Eppi əsərdə sevgini təmsil edir. Hər şeydən əlini üzmüş, ümidsiz Sayles üçün Eppi bir növ ümid və bu romanda xoşbəxtliyin əsas simvoludur.

Yazıçının Viktoriya dövrünü təsvir edən bir digər məşhur əsəri isə 1871-ci ildə nəşr etdirdiyi “Midlmarç”dır (*Middlemarch*). Əsərdəki hadisələr 1830-1832-ci illər arasında İngiltərənin mərkəzi bölgəsindəki uydurma Midlmaç şəhərində baş verir. Çoxlu personajların bir-biri ilə kəsişən hekayələrinin təsvir edildiyi bu romanda qadının mövqeyi, evliliyin xüsusiyyətləri, idealizm və eqoizm, din və ikiüzlülük, siyasi islahatlar və təhsil kimi mövzulara toxunulmuşdur.

Əsərin protaqonisti Doroteya (*Dorothea*) özündən bir neçə yaş böyük olan məşhur alim Edvard Keysobonla (*Edward Casaubon*) evlənməkdə ciddi səhvə yol verdiyini anlayan ciddi və ağıllı bir qadındır. Doroteya ərinin işlərində fəal iştirak edəcəyinə ümid etsə də, Edvard ondan katibəsi işləməsini istəyir. Bu səbəbdən, Doroteya ərinin istedadına, böyük işinə şübhə etməyə başlayır. Eləcə də, hər şeyə nəzarət edən Edvard idealist bacısı oğlu Uill Ladislav (*Will Ladislaw*) ilə dostluq qurduqda arvadını qısqanır. Doroteya məyus olmasına baxmayaraq, evliliyinə sadiq qalır. Edvard infakt keçirdikdən sonra isə Doroteya özünü ona adasa da, o öldükdən sonra bacısı oğlunun arvadını ələ keçirək istəyəcəyini düşünən əri Ladislavın onu ziyarət etməsini qadağan edir. Edvard hətta arvadından ölümündən sonra da onun istəklərinə əməl edəcəyinə dair söz alır. Cavab verməkdə tərəddüd etsə də, Doroteya sonda onun xahişi ilə razılaşmağa qərar verir. Lakin, Edvard ona deyə bilmədən ölür. Daha sonra Doroteya ərinin vəsiyyətnaməsində Ladislausla evlənəcəyi təqdirdə mirasdan məhrum ediləcəyinə dair bir müddəa aşkar edir. Qalmaqaldan qorxan Doroteya və Ladislav əvvəlcə ayrı qalsalar da, sonda bir-birlərini sevdiklərini etiraf edib evlənirlər.

Bundan sonra Lidqeytin (*Lydgate*) hekayəsi nəql olunmağa başlayır. O, tibbə, xüsusən də tədqiqata həvəsli olan mütərəqqi gənc həkimdir. Midlmarça gəldikdən qısa müddət sonra bir qadında olmağını istədiyi nəzakətlilik, zəriflik, itaətkarlıq kimi bütün özəllikləri daşıyan Rozamund Vinsi (*Rosamond Vincy*) ilə münasibət qurur və daha sonra onunla evlənir. Rozamund kasıb olduğunu bilmədiyi Lidqeyt ilə evliliyin onun sosial vəziyyətini yaxşılaşdıracağına inanırdı. Beləcə, Lidqeyt Rozamundu seçməklə səhv etdiyini başa düşür. Dayaz düşüncəli və ərinin işinə qarşı diqqətsiz

olan Rozamund bahalı həyat tərzi arzusunda idi və Lidqeytin maddi cəhətdən iflasın astanasına sürükləyir. Məcbur qalan Lidqeyt heç kəsin bəyənmədiyi bankir Nikolas Bulstroddan borc istəsə də, rədd cavabı alır. Bulstrodun da öz problemsləri var idi. O, xoşagəlməz keçmişini bilən Con Raffle tərəfindən şantaj edilirdi. Raffle xəstələnəndə Bulstrod ona qulluq edir və Lidqeyti gətirməsi üçün adam yollayır. Ziyarətlərindən birində Bulstrod əvvəllər imtina etdiyi pulu Lidqeytə borc verməyi təklif edir və Lidqeyt qəbul edir. Bulstrod sonradan Lidqeytin tibbi göstərişlərinə məhəl qoymur və Rafflenin ölümünə səbəb olur. Bulstrod və Raffle haqqında əsl hekayə üzə çıxdıqda isə, Lidqeytin Rafflenin ölümündə əli olub olmadığı haqqında suallar ortaya çıxır. Onun təqsirsiz olduğuna inanan azsaylı insanlardan biri də Doroteyadır və Lidqeyt onun şəfqəti və xeyirxahlığına qapılır. Sonda Lidqeyt və Rozamund Midlmarçı tərk etmək məcburiyyətində qalaraq Londona köçürlər. Lidqeyt orada varlanır, lakin özünü hələ də yetərsiz hesab edirdi. Nəhayət, o, 50 yaşında vəfat edir.

Bu əsərində XIX əsrin əvvəllərində kiçik bir şəhərin həyatının hərtərəfli və zəngin portretini yaratmaqla yanaşı, Eliot psixoloji anlayışlara və əxlaqi ünsürlərə malik modern bir roman ərsəyə gətirmişdir. Eliot həm də qadın yazıçıların çoxunun etdiyi kimi əsəri qaçınılmaz xoşbəxt sonluqla bitirməyi rədd edərək ənənəni pozmuşdur. Bunun əvəzinə o, evliliyin həqiqətlərini təfərrüatlı şəkildə izah etmişdir. Kişi tənqidçilər bu cür cəsur və cəsarətli təhkiyəni qadın bir yazıçı üçün çox kədərli hadisə kimi qiymətləndirsələr də, bu əsər dünya ədəbiyyatında yetkinlər üçün yazılmış mükəmməl ingilis romanından biri hesab edilir.

Əsərin əsas mövzularından biri ideal evlilik və evliliyin qüsursuzluğudur. “Midlmarç”dakı personajların əksəriyyəti məcburiyyətdən ziyadə sevgi üçün evlənir, lakin evlilikləri mənfi və ya qeyri-romantik alınır. Evlilik və onun arxasınca getmək əsərdəki əsas qayğılardandır, lakin dövrün bir çox romanlarından fərqli olaraq, evlilik xoşbəxtliyin əsas mənbəyi də hesab edilmir. Buna nümunə olaraq 2 personajın – Doroteya və Lidqeytin uğursuz evliliklərini göstərmək olar. Lakin fərq ondadır ki, Doroteyanın evliliyi, gənc olmağı və ondan yaşca çox böyük biri ilə evlənməsi səbəbindən yaşadığı xəyal qırıqlığı olduğu halda Lidqeytin evliliyi, uyğunlaşmayan

xarakterləri səbəbindən uğursuz olur. Bulstroudlar isə keçmişlərini gizlətmələri səbəbindən evlilik krizi ilə üzləşirlər və Fred Vinsi ilə Meri Qart da münasibətlərini qurmaqda büyük çətinliklər yaşayırlar.

*"I mean, marriage drinks up all of our power of giving or getting any blessedness in that sort of love. I know it may be very dear—but it murders our marriage—and then the marriage stays with us like a murder—and everything else is gone." – Demək istədiyim odur ki, evlilik bu tip bir sevgidə hər hansısa bir müqəddəslik vermə yaxud alma gücümüzü tükədər. Mən bilirə mki, bu çox dəyərli ol bilər – amma evliliyimizi öldürür – və sonra evlilik bir qətl kimi aramızda qalır – və digər hər şey getmiş olur.*) [12, s.81] Ümumiyyətlə, evliliklərin heç biri mükəmməl bir sonla bitmədiyindən, "Middlmarç" da evliliyin romantik və problemsiz olaraq mümkün təsvirinin açıq tənqidini göstərmişdir.

Əsərdə əksini tapmış başqa bir mövzu isə sosial gözləntilərin sərtliyi ilə bağlıdır. Belə ki, insanların davranış tərzi və cəmiyyətin onları necə mühakimə etməsi əsərdə detallı təsvir edilmişdir. Cəmiyyətin gözləntiləri doğrultulmadıqda, əsərdəki obrazlar sərt ictimai tənqidlərə məruz qalırlar. Məsələn, bunu əsərdə cəmiyyətin Ladislavı qarışıq soyağacına mənsub olması səbəbindən sərt bir şəkildə mükahimə etməsi məqamında görmək mümkündür. Eləcə də, Fredin ailəsinin istəklərinə qarşı çıxması və din adamlarının arasına qatılmamağı seçdiyi üçün az qala valideynləri tərəfindən rədd edilməsində də izləmək mümkündür. Lakin Fred təhsilindən imtina edərək cəmiyyətin istəklərinə qarşı gəldikdə əsl sevgi və xoşbəxtliyi tapır. Son olaraq isə, Rozamundun nəzakət ehtiyacı və yüksək sosial standartlara uyğun yaşamaq arzusu onun çöküşü halına gəlir. Bunun əksinə olaraq, Doroteyanın cəmiyyətin qaydalarına zidd hərəkət etmək qərarı onu əsərin sonunda ən hörmətli personaja çevirir.

Eləcə də, əsər boyu öz müqəddəratını təyin etmə və şans məsələlərinə sıxca toxunulmuşdur. Bu əsərdə öz müqəddəratını təyin etmə və şans qarşı-qarşıya gələn zidd qüvvələr deyil, əksinə, mürəkkəb bir tarazlıq vəziyyətindədirlər. Belə ki, personajlar şans və öz müqəddəratını təyin etmə inancına ciddi şəkildə riayət etdikdə,

onların həyatında pis şeylər baş verir. Rozamundun ərinin istəklərinə zidd olaraq qohumundan pul istədiyi bir məktub yazdıqda, onun bu öz müqəddəratını təyinetmə hərəkəti Lidqeytə xoş gəlməz və onu pis vəziyyətə saldığından kömək etməkdən imtina edilir. Digər tərəfdən, yalnız şansa güvənən Fred pulunu qumar oynamağa xərcləyərək borca düşür və ona güvənən insanları da özü ilə sürükləyir. Yalnız qumardan uzaqlaşıb ruhanilikdən imtina etmətə qərar verəndə onun həyatında yaxşı şeylər baş verməyə başlayır. Əsərdə xüsusilə Farbrazer obrazı şans və öz müqəddəratını təyinetmə arasındakı tarazlığı nümayiş etdirməyə nail olmuşdur. Bu tarazlıq onun qumar oyununda nümayiş etdirdiyi bacarıqlarında özünü göstərirdi. Onun bu qabiliyyəti və şansının birləşməsi nəticəsində isə o, çox vaxt oyunlarda qalib gəlirdi. Müəllif bu obraz vasitəsilə oxucuya həyatda həm şansın, həm də öz müqəddəratını təyinetmənin əhəmiyyətini çatdırmağa çalışıb. Öz müqəddəratını təyinetmə və şans arasındakı gərginliyin mürəkkəbliyi bütövlükdə romanın hadisələrə konkret olaraq səhv yoxsa düz və ya qəhrəman olmadan çox baxış bucağından baxmağa meylli olmasının bir nümunəsidir.

Əsərin epiqrafları da diqqətəlayiqdir. Belə ki, kitabdakı hər bir fəsil kiçik bir sitat yaxud epiqraf xarakterli bir neçə misra ilə başlayır. Bu epiqraflar növbəti fəsli ümumiləşdirmək və süjeti irəli aparmaq vasitəsi kimi istifadə olunmuşdur. Əsərdə sıxlıqla U.Şekspir, C.Çoser, A.Dante və U.Bleyk kimi yazıçılardan sitatlar gətirilmişdir. Lakin seçdiyi bu sitatların ənənəvi olmayan təbiətinə görə Eliot onların qadın müəllif üçün çox intellektual olması adı ilə bir çoxları tərəfindən ittiham edilir.

Kitabda müəllif qeybət və başqalarının haqqında danışmaq məsələsinə də toxunmuşdur. Əsərdə çox vaxt personajlar, xüsusən də əks cinsdən olan personajlar bir-biri ilə birbaşa ünsiyyət qurmur, əksinə, onların adından danışmaq üçün digər personajlardan istifadə edirlər. Mesajların daşınması bir növ diplomat yaxud səfir rolunu oynayan şəxslər vasitəsilə həyata keçirilir, özləri danışmır. Bu, mürəkkəb sosial şəbəkəni təmin etmək, həm də birbaşa ünsiyyətdən qaçmaq üçün bir vasitədir. Başqasının ağzından danışmağın təzahürü isə qeybətdir. Qeybət romanda mühüm rol oynayır, çünki tez-tez məlumat başqası vasitəsilə çatdırılanda əsl mahiyyətini

dəyişərək cilddən cildə girir. Dedikləri sözün başqa formada çatdırılma ehtimalını bildikləri halda personajların bir-başa ünsiyyətdən qaçınmasının səbəbi isə əsərdə əsl informasiyanın tez ya da gec sonunda ortaya çıxacağa əmin olmaqlarından qaynaqlanır.

Borc almaq və borc vermək problemləri də əsər boyu sıxca rastımıza çıxır. Ümumiyyətlə, pul çox vaxt xarakterlərin şəxsiyyətinin əsas elementlərini açıb göstərir. Əsərin süjetini pul üçün narahat olan və ya başqalarından pul istəyən personajlar idarə edir. Birincisi, Fred bir neçə nəfərdən borc istəmək məcburiyyətində qalır. İkinci, Lidqeyt əlindəki pulunu idarə edə bilmir və arvadı Rozamundun lüks həyat istəyi səbəbindən ciddi borc altına girir. Üçüncü, Rafflenin həmişə pul dilənməsi və şantaj etməsi onun təhdid edici rolunu göstərir. Bunların əksinə, Merinin ölməkdə olan Piterdən pul almağı rədd etməyi onun xoş niyyətindən və dürüstlüyündən xəbər verir. Pul mübadilələri və borc alış-verişi personajları iqtisadi xarakterli bir alt mətndə bir-birlərinə bağlayır.

Əsərdə həmçinin bir sıra simvollar da öz əksini tapmışdır. Məsələn, Ladislavın nənəsinin portreti buna nümunə ola bilər. Belə ki, Ladislavın nənəsinin miniatür portreti mətndə bir neçə dəfə görünür və bir növ Doroteyanın sevgisi üçün sərvətdən imtina etməsinin simvoludur. Çünki, Ladislavın nənəsi də sevdiyi adamla ola bilmək üçün öz sərvətindən imtina etmişdir. Bu portret Doroteyanın Edvardla yaşadığı evindəki yataq otağında asılıdır. Doroteya Ladislav haqqında düşünəndə tez-tez bu portreti xatırlayır. Ladislav romantik gərgin ayrılıq söhbətlərində Doroteyayla vidalaşarkən Doroteya ona ayrılıq hədiyyəsi olaraq bu portreti verir. Ladislav isə keçmişə aid bu şeyə ehtiyacı olmadığını deyərək hədiyyədən imtina edir və bununla da, onların birlikdə olma üçün hələ də bir şanslarının qaldığına işarə verir.

Eləcə də, Raffle obrazının özü də xüsusi simvola malikdir. Belə ki, Raffle personajı keçmişin bir növ uğursuz qayıdışını simvolizə edir. Çox vaxt kəndin tənha gəzən qara bir fiqur kimi görünən Raffle keçmişin təhlükə tərəflərini xoşagəlməz aşağı təbəqə ilə əlaqələndirərək pis şöhrətə və şübhəli keçmişə malik bir insan kimi təsvir olunmuşdur. Onun təkrarən görünüşü Bulstrod və Ladislavın qaranlıq

keçmişlərini bir-birlərinə bağladığı üçün bir növ əsərin müqəddəsliyini pozur. Onun ölümü Ladislavı az qala şəhərdən uzaqlaşdıran məhəllə dedi-qodularını alovlandırır, Bulstrodun çöküşünə səbəb olur və romanın kulminasiya nöqtəsinə qalxmasına gətirib çıxarır.

"Middlmarç" olduqca qeyri-adi bir romandır. Əsasən Viktoriya dövrü romanı kimi qiymətləndirilsə də, müasir romanlara xas olan bir çox xüsusiyyətlərə də malikdir. Bu səbəbdən, Corc Eliotun bu şah əsərinə qarşı tənqidi fikirlər və reaksiyalar da qarışıq idi. Lakin əsərə qarşı irəli sürülən ümumi və əsas ittiham onun xəstə, depressiv tonu olmuşdur. Eliotun kitab boyu anlaşılmaz ədəbi və elmi göndərmələr etmək vərdişi bir çox tənqidçilərə xoşuna gəlməmişdi. Onların fikrincə, qadın yazıçı bu qədər intellektual olmamalıdır. Bunun əksinə, Eliot isə səfeh qadın yazıçılara nifrət edirdi. Viktoriya dövründə qadın yazıçılar adətən ənənəvi romantizm quruluşundakı stereotipik fantaziyalar yazmaqla məhdudlaşırdılar.

Eliot təkcə qadınların yazılarına qoyulan məhdudiyyətlərlə razlaşmamaqla qalmayıb, həm də onların gözlədikləri tip əsərləri də bəyənmirdi. Ənənəvi romantikanın məcazlarını bəyənməməsi Eliotun Rozamund və Lidqeyt arasındakı evliliyə münasibətində aydın görünür. Həm Rozamund, həm də Lidqeyt münasibətlərini və romantikalarını birbaşa ənənəvi romantizmə əsaslanan ideallar baxımından düşünürdülər. Bu cür yazılmış əsərlərlə bağlı başqa bir problem, evliliyin romanın sonuna işarə etməsidir. Eliot isə evliliyin həqiqətlərini təsvir etmək üçün çox səy göstərmişdir. Əsərin sonu nə qədər depressiv hesab edilsə də, Eliot məqsədli şəkildə xoşbəxt sonluqdan imtina etmişdi. Çünki müəllif bir-birinə uyğun gəlməyən iki insan arasındakı evliliyin mütləq sona məhkum olduğuna inanırdı. Bu cür evliliyin sadəcə əsarət olduğunu düşünən Eliot Doroteyanın yaşlı əri infarktdan öldüyü üçün bütün həyatı boyu etdiyi səhvi ilə yaşamaqdan xilas olduğunu bildirmişdir.

Qısa görüşlərdən yaranan münasibət və evliliklər problem yaşamağa məcburdur. Çünki hər iki tərəf bir-birinin real olaraq tanımadan evlənirlər. Bunun əksinə, uyuma əsaslanan evliliklər isə daha uğurlu alınır. Eləcə də, Eliot qadınların daha çox söz sahibi olduğu evliliklərin də uğurlu olduğunu düşünür. Məsələn, bunu

əsərdəki Fred və Meri arasındakı evlilikdə görmək mümkündür. Qadının ona rahib olacağı təqdirdə onunlaevlənməyəcəyini deməsi ilə, əslində, Fredi sevmədiyi bir işin bədbəxt tələsinə düşməkdən xilas edir. Doroteya və Edvard da daima ərinin onu öz nəzarəti altına almasına görə mübarizə aparır. Eyni hadisə Lidqeyti öz əsiri etmək istərən Rozamundun evliliyinə də aiddir.

Əsərdə həyati seçimlərlə bağlı ilk olaraq evlilik qeyd olunubsa, ikinci yeri peşə tutur. Eliot bu iki seçimə çox ciddi yanaşmış və həyatın gələcək axarı üçün bunların əhəmiyyətini vurğulamışdır. Bu əsərdə Eliot insanın qazanc əldə edəcəyi peşə seçimini səhv etməyin nəticələrini ətraflı şəkildə göstərir. O, həmçinin qadınları yalnız məişət sferası ilə məhdudlaşdırmağın nəticələrini də detallı şəkildə oxucusuna təqdim etmişdir.

Yekun olaraq, qeyd etmək istərdik ki, Eliot bu romanında dövrün kişi-qadın ayrıseçkiliyi, təbəqələrarası toqquşmaları, təhsilin əhəmiyyəti, əxlaq məsələləri kimi problemləri bütün dərinliyinə kimi təqdim etməyi bacarmışdır. Eləcə də, keçmişin indiki kimliyimiz üzərindəki iddiası, mərhəmətin önəmi, cəmiyyətin fərd üzərindəki təsiri kimi mövzulara xüsusi diqqət yetirmişdir.

# II FƏSİL. CORC ELİOTUN "FLOSS ÇAYI ÜZƏRİNDƏ DƏYİRMAN" ƏSƏRİNDƏ VİKTORİYAN DÖVRÜ ƏNƏNƏLƏRİNİN TƏZAHÜRÜ.

## 2.1 Corc Eliotun "Floss çayı üzərində dəyirman" romanının ideya-məzmun xüsusiyyətləri.

Corc Eliotun yaradıcılığında xüsusi yer tutan romanlarından biri 1860-cı ildə çap olunan "Floss çayı üzərində dəyirman"dır (*The Mill on the Floss*). Əsər avtobioqrafik səciyyə daşıyaraq ömrü boyu gerçək kimliyini gizləmək məcburiyyətində qalmış C.Eliotun daxili aləmini əks etdirir. *"Roman yazıçının uşaqlıqdakı emosional və mənəvi mübarizəsini ifadə edir"* [19, s. 201]. Kiçik bir qəsəbədə böyüyən balaca qızcığaz Meqqi Talliverin həyatı kontekstində öz ayaqları üstündə durmağa çalışan bir qadının yaşadıqlarını, ailə, sevgi və qatı qaydaları olan bir cəmiyyəti bütün incəlikləri ilə təsvir edən, üç hissədən ibarət olan əsərin birinci hissəsində uşaqların boya-başa çatması, ikinci hissəsində cənab Talliverin ölümü, sonuncu hissəsində isə bacı-qardaşın ölümü təsvir edilir.

Corc Eliot əsərinin ilk bölümündə çay kənarında oynayan bir qızdan bəhs edir. Daha sonra əsərin mərkəzində duran Talliverlər ailəsinin evini təsvir edir. Bütün bu hadisələr təhkiyəçinin dilindən nəql edilsə də təhkiyəçinin kimliyi naməlumdur. Əslində, təhkiyəçi Corc Eliotun özüdür. Yazıçı təhkiyəçi qismində tez-tez əsərdə baş verən hadisələrə müdaxilə edir, hadisələri dəyərləndirir.

Romanı oxuyarkən geri düşüncəli cəmiyyətin insanları ağuşuna aldığının şahidi olmaq mümkündür.  Bu cəmiyyyətdə bəziləri imkanlarını genişləndirə bilirsə, bəziləri isə iflasa uğramağa meyillidir. Mənfəəti üçün yaşayan, başqalarını düşünməyənlər varlana bilir. Yazıçı Dodson ailəsinin timsalında özündən daha aşağı səviyyəyə malik insanlara təkəbbürlü davrandığını oxucunun nəzərinə çatdırır. Dodsonlar patriarxal ənənələrdən qopa bilmir, maddiyata önəm verməklə bu ənənələrəsadiq qaldıqlarını sübuta yetirirlər. Kasıb kimsə ilə ailə həyatı qurmaq onlar üçün utancvericidir. Onlar risk etməyi sevmirlər. Dodsonlar ailəsinin ən kiçiyi Bessi

onlara layiq olmayan Talliverlə ailə həyatı qurmuşdu ki, böyük bacıları həmişə onu ailə ənənələrinə xəyanət etdiyinə görə qınayırlar.

Əsərdə qadınların öz aralarındakı çəkişmələrini göstərməklə müəllif onların gözəllikləri ilə, ərləri ilə, maddi imkanları ilə öyünmələrini oxucuların nəzərinə çatdırır. Qadınlar gözəl geyinməklə həyat yoldaşlarının deyil, digər qadınların diqqət mərkəzində olmaq istəyirlər. Hətta ailə həyatı qurmaq da onlar üçün yarışa çevrilmişdir.

Əsərdə də vurğulandığı kimi Viktoriyan dövründə kişi qadınla evlənərkən ailəsinin kimliyinə diqqət yetirilirdi. Cənab Veykmin qadının işini deyil, ailəsinin kimlərdən olmasını sorğuya çəkməsi buna misal ola bilər.

Cənab Talliver özü kimi oğlunun əkinçi olmasını istəmədiyindən Tomu məktəbə yazdırır. Meqqinin oxumağa olan həvəsinə baxmayaraq, Tom atası tərəfindən bacısından daha intellektli fərd kimi seçilir. Meqqi hər fürsətdə həddən artıq çox istədiyi qardaşının yanına gedir və Tomun əldə etdiyi bilikləri qısa zamanda mənimsəməyə çalışır. Bir müddətdən sonra cənab Talliverlə ədavəti olan Veykmin oğlu Filip də həmin məktəbdə təhsil almağa başlayır. Bu vaxtdan etibarən Filip və Meqqi arasında sevginin ilk toxumu cücərməyə başlayır. Hadisələrin inkişafında oxucu Cənab Talliverin Veykmə uduzması və bütün var-dövlətini itirərək böyük borca girməsi ilə tanış olur. Veykmin dəyirmanı alması Talliverin daha çox qəzəbinə səbəb olur.

Cənab Veykm mənfəəti üçün başqalarından istifadə edir. O, çirkli əməllərini yaxşı idarə edə bildiyi üçün ləyaqətli biri kimi tanınır. Başqalarına yaxşılıq edirmiş kimi görünsə də onları alçaldır. Talliverin dəyirmanını alandan sonra orada Talliverə iş verərək xeyirxahlıq edirmiş kimi davranır. Əslində isə bu “xeyirxahlığı” ilə Talliverə zərbə vurur.

Veykmin saxtakarlığı Talliverin dili ilə verilir. Ancaq Veykm bu ifşaların təsirini azaltmağa çalışır. Yazıçı hesab edir ki, Veykm insana düşmən olan sosial sistemin bir hissəsi kimi çıxış edir.

Əsərdə Pivart obrazının o qədər gözə çarpmamasına baxmayaraq, qəhrəmanların həyatına birbaşa təsir göstərir. Pivart Talliverlər kimi başqa ailələrin də çətinlik çəkəcəyini düşünmədən Floss çayından suvarma məqsədilə istifadə etmək niyyətindədir ki, bunun nəticəsində o, Talliverlər ailəsinin çöküşünə yol açır.

Atasının borclarını ödəmək üçün çırpınan Tom Meqqi və Filipin gizli görüşlərinin birini yarıda bölür və Meqqiyə Filiplə bir daha görüşəcəyi təqdirdə nəyin bahasına olursa olsun, dəyirmanı geri almağı vəd edən atasını vəziyyətdən xəbərdar edəcəyini bildirir, bacısını Filiplə birgə daha mədəni dünyada yaşamaqdan məhrum edir.

Talliver obrazı isə dürüstlüyü, səxavətliliyi ilə seçilir. Xanım Qleqin borcunu qaytarmaq üçün vaxtilə bacısı Mossa verdiyi borcu istəmək üçün özündə güc toplayanda bacısının səfil vəziyyətini xatırlayır, buna görə də fikrindən dönür. Bu səhnə ilə Corc Eliot Talliverin qəlbindəki gözəl duyğuları göstərir.

Cənab Talliver ailəsinin rifahı üçün çox narahatdır. Xüsusən də Meqqinin bibisi kimi kasıb biri ilə ailə quracağından ehtiyat edir. Dodson bacıları tipik Viktoriyan evli qadınlarını təmsil edirlərsə, cənab Talliverin bacısı Mossun simasında isə tamamilə fərqli bir qadın obrazı ortaya qoyulur. Xanım Moss Meqqinin davranışlarını heç vaxt mühakimə etmədiyi üçün o, bibisinə daha çox rəğbət bəsləyir. Mossun sahib olduğu ailə XIX əsrdə İngiltərədəki bədbəxt ailələri təcəssüm etdirir.

Qeyd etmək lazımdır ki, xanım Mossun səkkiz övladı var və uşaqlara baxmaq həm maddi, həm fiziki güc tələb edir. Lakin o, bunu üzərinə düşən öhdəlik hesab edir. Belə bir vəziyyətdə ailə bir-birindən məhəbbəti əsirgəmir. Meqqi adlı-sanlı, var-dövlət içində yaşamaqdansa, bu cür sevgi dolu ailədə yaşamağı üstün tutur. Corc Eliot Meqqinin dilindən öz hiss etdiklərini yazıya tökür ki, o da sevdiyi insanla başqaları tərəfindən narahat edilmədən xoşbəxt yaşamaq istəyirdi.

Atanın ölümündən sonra Meqqi və Tom sanki öz dostlarını itirmiş kimi hiss edirlər. Hər ikisi bu ölümdən çox sarsılır. Bundan sonra bacısının qayğısına qalmaq vəzifəsi Tomun üzərinə düşür. Tomun davranışı isə Meqqiyə tanış olan atasının davranışlarından daha sərtdir.

Bir müddətdən sonra Meqqi xalası qızı Lyusinin dəvəti ilə oraya gedir. Burada o, Lyusinin təşəbbüsü ilə Filiplə yenidən görüşmək imkanı əldə edir. Filip Meqqi ilə evlənəcəyini düşünərək atası Veykmi dəyirmanı Talliverlərə satmağa vadar edir. Lakin Filip və Meqqi arasındakı münasibət qəfil istiqamətini fərqli yönə dəyişir. Meqqi Lyusinin nişanlısı Stivenin diqqətini cəlb etməyə başlayır ki, Meqqi də ona qarşı hisslərinin olduğunun fərqinə varır. Meqqi və Stiven gəmiyə minib qaçmaq fikrinə düşsələr də, Meqqi səhv yolda olduğunun fərqinə varır və geri qayıdır. Tom ailəsinə ləkə gətirdiyi üçün Meqqini qəbul etmir. Corc Eliotun ailəli yazıçı-jurnalist Corc Henri Luis ilə olan münasibətinin üstünün açılması, cəmiyyətdən uzaqlaşdırılması, qardaşı İshaqın bu münasibəti müsbət qarşılamaması bu səhnə ilə səsləşir. *"Amma o, çox xoşbəxt idi və düzgün yolda olduğundan əmin idi, öz əxlaqi dəyərlərinin mühakiməsinə olan inamı ona cəsarət vermişdi"* [10, s. 26].

Bütün olanlara baxmayaraq, Lyusi və Filip Meqqini bağışlayırlar. Bir gün şəhəri sel basması səbəbindən Meqqi qayığa minib qardaşının yanına dəyirmana gedir. Sanki son anlarını yaşadıqlarını hiss edərək bacı-qardaş aralarındakı küsülülüyə son qoyur. Qayıq batmağa başlayanda bir-birilərini bərk-bərk qucaqlayaraq ölümə birgə addımlayırlar.

İngilis ədəbiyyatının görkəmli simalarından sayılan Corc Eliot "Floss çayı üzərində dəyirman" adlı əsərində Viktoriya dövründə qadın və kişilər arasındakı bərabərsizliyi qabartmış, patriarxal ideologiyanın erkən yaşda uşaqlara aşılanmasını göstərmişdir. Qız uşaqlarının təhsil almaq kimi imkandan istifadə edə bilmədiklərini vurğulayan müəllif bu sahədə oğlanların daha üstün olduğunu, *"kişilər kimi qadınların da eyni təhsil imkanlarına sahib olmaları"* [27, s. 102] fikrini önə sürür.

Corc Eliot özü də XIX əsrdə "qadın" olduğu üçün bir sıra çətinliklərlə üzləşmişdir. Anasının ölümündən sonra təhsilini yarıda saxlayıb atasına baxmaq öhdəliyi onun üzərinə düşmüşdü, çünki valideynlərinin qayğısına qalmaq həmin dövrdə qız övladlarının vəzifəsi sayılırdı. Yazıçı adı çəkilən əsərdə məhz *"qadınlara tətbiq edilən məhdudiyyətlərin xülasəsi"*ni [5, s. 103] verir. Əsərin baş qəhrəmanı Meqqinin uşaqlığından ölümünə kimi yaşadığı həyat nəql edilərkən qadınların

cəmiyyətdə üzləşdiyi problemlər canlandırılır. Bütün məhdudiyyətlərə baxmayaraq, Meqqi mübariz bir qadın kimi təqdim olunur.

Yazıçı romanda Viktoriyan dövrünün prinsiplərinə, xüsusilə qızların təhsildən təcrid olunması fikrinə kəskin şəkildə qarşı çıxır. Cənab Talliver xanımına öz atasının təmin edə bilmədiyi təhsil imkanlarını öz oğluna vermək istəyindən söz açır, oğlunun yaxşı sosial statusa sahib olmasını istəyir: *"But I should like Tom to be a bit of a scholard, so as he might be up to the tricks o' these fellows as talk fine and write with a flourish. It 'ud be a help to me wi' these lawsuits, and arbitrations, and things. I wouldn't make a downright lawyer o' the lad,—I should be sorry for him to be a raskill,—but a sort o' engineer, or a surveyor, or an auctioneer and vallyer, like Riley, or one o' them smartish businesses as are all profits and no outlay, only for a big watch-chain and a high stool. They're pretty nigh all one, and they're not far off being even wi' the law, I believe; for Riley looks Lawyer Wakem i' the face as hard as one cat looks another. He's none frightened at him"* [15, s. 11]. –*"Amma Tomun bilikli olmasını arzulayıram, bununla da o, gözəl danışanların, zərif mətnlər yazanların sirlərini öyrənmiş olar. Həmçinin mənə məhkəmə proseslərində kömək etmiş olar. Uşağı vəkil etmək fikrində deyiləm. Onun şarlatan olmasına məyus olaram. Amma Tomun Rayli kimi mühəndis, yerölçən, auksionçu, yaxud heç xərc çəkmədən çoxlu pul qazanan ağıllı bir iş adamı olmasını istəyirəm".*

Göründüyü kimi təhsilli olmaq sosial status qazanmaq hesab olunur ki, kişi nüfuzunu daha da möhkəmləndirmək üçün yaxşı təhsil almaq şərtdir.

Tomun rasional, Meqqinin xəyalpərəst olması bacı-qardaş arasındakı fərqlərdən biridir. Tom daha çox təcrübəyə əsaslanan biliyə üstünlük verirsə, Meqqi kitab oxumağı və xəyallar qurmağa meyl edir. Tom kişi cinsindən biri olaraq qızları səfeh hesab edir, onları hansısa işi görməkdə aciz sayır. Meqqi özünü qardaşına sübut etmək üçün Tomla birlikdə evdən kənarda iş görməyə, balıq tutmağa gedir.

Təhsillə bağlı məsələlərə fikir bildirməkdə çətinlik çəkən xanım Talliver tipik Viktoriyan qadınını simvolizə edir. Oğlunun gələcəyi ilə əlaqəli qərarlarda fikrini bildirə bilməyən xanım Talliver bacıları ilə məsləhətləşmənin faydalı olacağı

qənaətindədir. O, Viktoriyan dövrü ənənələrinə əməl edir, cəmiyyət tərəfindən tənqid olunmaq istəmir. Oğlunun təhsili ilə bağlı xanım Talliverin narahat olduğu yeganə mövzu onun ehtiyaclarının qarşılana biləcəyi bir yerdə təhsil almasıdır: *"...if Tom's to go to a new school, I should like him to go where I can wash him and mend him"* [15, s. 6]. – *"Əgər Tom yeni məktəbə gedəcəksə, onun paltarlarını yuya və tikə biləcəyim bir yerə getməsini istəyərdim".* Talliver bu mövzunu yanlış insanla müzakirə etdiyinin fərqindədir.

Cənab Talliver oğlunun təhsilinə önəm verdiyi təqdirdə qızının təhsilə olan marağını gözardı edir, hətta onun Tomdan daha ağıllı olmasını məyusluqla qeyd edir. Viktoriyan dövrünün ənənələrinə sadiq qalan ata Meqqini bu xüsusiyyətinə görə quyruğu uzun qoyunla müqayisə edir. Qoyun uzun quyruğu olduğu üçün pul gətirmədiyi kimi ağıllı qadın da bu cəmiyyət də heç kəsə lazım deyildi.

Əgər Talliverə şans verilsəydi, o, qızının oxumasını daha məqsədəuyğun hesab edəcəkdi. Amma təəssüf ki, mövcud cəmiyyət ona seçim şansı vermir, Meqqinin təhsilinə pul xərcləməsi əbəs olacaq. Atanın Rayli ilə söhbəti bu fikri təsdiqləyə bilər: *"...She understands what one's talking about so as never was. And you should hear her read,– straight off, as if she knowed it all beforehand. And allays at her book! But it's bad – it's bad," Mr. Tulliver added sadly, checking this blamable exultation. "A woman's no business wi' being so clever; it'll turn to trouble, I doubt"* [15, s. 13]. – *"Danışılanları elə yaxşı başa düşür ki. Hələ oxumağını görəsiniz, elə bil yazıları əvvəlcədən bilirmiş kimi oxuyur. Başını kitabdan qaldırmır. Amma bu, çox pisdir". – cənab Talliver sevincini üstələyən kədərlə əlavə etdi. "Bu qədər ağıllı olmaq qadına yaraşmaz, bunun onun başına dərd olacağından heç şübhəm yoxdur".*

Rayli də Talliverlə razılaşaraq Toma təhsil verilməsi gərəkli olduğu fikrini dəstəkləyir. Gələcəkdə ailə başçısı olmaq üçün oğlan uşaqlarının oxuması əsas şərt hesab edir, təhsilin məhz oğlanlara veriləcək ən yaxşı miras olduğunu düşünür.

Qeyd etmək yerinə düşər ki, Tom göndərildiyi məktəbdə tədris olunan materialı mənimsəməyə qadir deyil. Onun üçün Latın dilini öyrənmək, yaxud həndəsəni anlamaq çox yorucudur. Bu anlamda Tomu başa düşmək mümkündür.

Tom daha çox praktiki bacarıqlara sahibdir, amma cənab Stellinq bu baxımdan Tomu heç anlamır, təcrübəyə əsaslanan bacarıqlar onun üçün heç bir məna ifadə etmir. Beləliklə, Tom təhsil almaq üstünlüyünə sahib olsa da ona heç uyğun olmayan təhsili mənimsəmək məcburiyyətində qalmağın əziyyətini çəkir.

Dövrün tələblərinə uyğun olaraq xanım Talliver qızının təhsili ilə özü maraqlanırdı. Amma bu təhsil tamamilə fərqli, itaətkar olmağı təbliğ edən bir təhsil idi. Xanım Tulliveri daim yaxşı ana ola bilmədiyi təqdirdə cəmiyyətin onu mühakiməsi qorxudurdu.

Xanım Tulliver XIX əsr İngiltərədə gördüyü təhsilə əhəmiyyət verməyən, ideal həyat yoldaşı, cəmiyyətə uyğun fərd olma arzusundakı qadınların ümumiləşdirilmiş obrazıdır. və şərəfli cəmiyyətin üzvü olmaq barədə düşünürdü.

Anası Meqqiyə başqaları ilə necə ünsiyyət qurmaq lazım olduğunu, hörmətli ailəyə mənsub bir qızın necə davranmalı olduğunu, düzgün şəkildə geyinməyi, saçını düzgün formada yığmağı öyrətməyə çalışırdı. Meqqi hər hansı bir şeyə fikrini bildirmək istədikdə bu cür qadınların toplumda yaxşı qarşılanmadıqları deyilərək susdurulurdu.

Viktoriya dövründə qadınlar evlərə həbs edilirdilər. Onlara erkən yaşlarından cəmiyyətin yalnız kişilər tərəfindən idarə olunduğu öyrədilirdi. Şüurlu olaraq qadınlar ictimai həyatdan uzaqlaşdırılırdı. Kişilər bu üstünlükdən hədsiz dərəcədə razı idilər. Qadınlar cəmiyyətin qınağına tuş gəlməmək üçün onlar üçün təyin olunmuş rolları oynamış və hörmət ediləsi cəmiyyət üzvləri kimi hərəkət etmək məcburiyyətində qalmışlar.

"Evdəki mələk" (*The Angel in the House*) ifadəsi Viktorya dövrü qadınlarının simvolu kimi çıxış edir. İfadə Koventri Patmorun şeirindən ortaya çıxmışdır ki, şeir Viktoriya dövründə xoşbəxt evlilik idealı haqqındadır və XIX əsr İngiltərədə yaşayan qadınlar üçün bir devizə çevrilmişdir. "Evdəki mələk" ifadəsi özünü ailəsinə həsr edən qadının mükəmməl nümunəsidir. Bu qadınlar çox iffətli, itaətkardır. Yalnız evin içərisini əhatə edən məsələlərlə məhdudlaşırlar. Fərdilikdən məhrum olan qadınlar həyat yoldaşları olmadan mövcud deyillər.

Bir qızın nüfuzlu evliliyi çox vacib məsələ sayılırdı ki, bu da onun həyatını məhdudlaşdırırdı. Patriarxal cəmiyyət sadalanan dəyərlərdən qadınları ictimai sahədən uzaqlaşdırmaq üçün bir vasitə kimi istifadə edirdi. Buna görə də qadınlar təhsil ala bilmir, evdən kənarda heç bir funksiyaya sahib deyildilər.

Təhsil əsərin mərkəzi mövzusu olduğundan yazıçının həyatına nəzər yetirmək məqsədəuyğundur ki, Eliot XIX əsrdə qadınlara qarşı təhsilə qoyulan məhdudiyyətləri aşmışdı. Eliot Viktoriyan dövrünün ən qabaqcıl ziyalılarından birinə çevrilmişdir ki, Latın, alman, yunan, ivrit kimi bir çox dilləri oxumuş, tarixi və fəlsəfi əsərlərə maraq göstərirmişdir.

Bu dövrdə qızlardan ənənəyə sadiq olaraq yaxşı həyat yoldaşı olmaları gözlənilir. Qızlar məhz bu gözləntilərə uyğun olaraq maarifləndirilərdilər. Bu maariflənmə işləri qadınların heç vaxt ağıl və maddi baxımından yetərli olmamaları idi. qadınların həmişə qorunmağa ehtiyacı var idi. Nəticədə, qadınlar yaxşı evlilik etməklə cəmiyyətdə özlərini güvənli hiss etmək istəyirdilər.

Lakin Meqqi hələ uşaq yaşlarından bu sistemi qəbul etmək istəmir. Anası və xalalarının təzyiqi səbəbindən o özünü qadın dünyasında rahat hiss etmir. O, ətrafındakı qadınlar kimi olmayacağına inanır. Ancaq dövrün tələbləri bunu heç də xoş qarşılamır, onlar cəmiyyət tərəfindən qəbul edilmir, hətta nifrət obyekti olurlar.

Meqqi nəinki düşüncəsi ilə, eyni zamanda görünüşü ilə də digər qızlara meydan oxuyur. Viktoriya dövründə qadınlar ağır parçalardan paltarlar geyinir, qəfəsə bənzər cihazlarla ətəklərini qabardırdılar. Hətta bu dövrdə qadının qabarıq ətək geyinib-geyinmədiyindən asılı olmayaraq onlara düzgün geyim qaydaları öyrədilirdi. Meqqi isə bu cür geyinməkdən imtina edir. Paltarın boynu Meqqinin boynunu qıcıqlandırdıqda qaşlarını çataraq narahatlığını ifadə edir. Buna görə o, hər kəsin geyindiyi narahat paltarları geyinmək istəmir. Əslində, onun geyimlərdən imtinası digər ənənələri pozacağının başlanğıcı sayılır.

Xanım Talliver bacısının köhnə paltarlarından geyim düzəldib Meqqiyə geyindirdikdə qızcığaz paltarın iyləndiyini bildirir, həmçinin Tom Meqqinin paltarın

içindəki görünüşünü lağa qoyur. Bununla da yazıçı Viktoriyan ənənələri artıq köhnəlmiş hesab edir.

Davranışları kimi görünüşü də fərqli olduğundan Meqqi daim anası və qohumları tərəfindən tənqid olunur. O, ev işləri ilə maraqlanmır, saçları həmişə səliqəsiz formada olur, adi geyimlər geyinir. Bu da Viktoriyan əxlaqına sahib anasını heç qane etmir. Xanım Talliver qızını xalası qızı Lyusi ilə müqayisə edərək cəmiyyətin bütün tələblərinə uyğun gələn qız kimi görmək istəyir. Təbii ki, Meqqi bu gözləntiləri doğrultmur. Meqqi və Lyusi obrazlarını müqayisə edən Corc Eliot *"Meqqinin cəmiyyətinə uyğunlaşa bilmədiyini"* [28, s. 77] vurğulayır. Əslində, Meqqinin görünüşü ilə diqqət çəkməsinin səbəbi özünü ailəsinə olduğu kimi qəbul etdirmək istəyi idi. O, ailəsinin görünüşə önəm verməkdənsə, daxili aləmini görməsini istəyir. İtaətkar olmağa sürükləndiyi üçün tamam əks istiqamətdə çıxış edir. Saçlarını kəsməklə qəhrəman bütün cəmiyyət qanunlarına, ailəsinə zidd olduğunu nümayiş etdirir, bu yolla qalib gələcəyini düşünür. Meqqi yaratdığı fərqlilik ilə artıq yeni qadın tipinin formalaşmasının əsasını qoyur.

Qeyd etmək lazımdır ki, vaxtilə cənab Talliver də həyat yoldaşını gözəlliyinə və ağıllı olmadığına görə seçmişdi. Əgər həyat yoldaşı təhsilli olsaydı, təkcə kişilərin idarə etdiyi cəmiyyətdə yox, həm də ailədə problem yaradacaqdı.

Təhsil status baxımından kişini daha da ucaltdığı üçün qadınlar bu haqdan kənar tutulur. Tomun latınca öyrəndiyi səhnə ilə qadınların heç vaxt latın dilini öyrənmə şansları olmamasını vurğulayan müəllif qadınlara necə axmaq kimi yanaşıldığını göstərmək istəyir. *"...You silly little thing!.. Girls never learn such things. They're too silly"* [15, s. 149]. – *"Axmaq balaca şey!.. Qızlar belə şeyləri heç vaxt öyrənmirlər. Çox axmaqdırlar".* Tomun fikrincə, çətin olan məsələləri qızların başa düşməsi üçün heç bir qabiliyyəti yoxdur. O, bacısının intellektindən xəbərdar olsa belə bunu etiraf etməkdən çəkinir, çünki Meqqinin ağıllı olması onu bacısından aşağı səviyyəyə sala bilər.

Romanda Tomun müəllimi Stellinqin qadınlara münasibəti də digər obrazlardan geri qalmır. O, qadınları dayaz fikirli olduqları üçün, heç bir şeyin

mahiyyətinə varmadıqları üçün mühakimə edir. Stellinqin bu cür düşüncəsi Meqqini zəif hiss etməyə, motivasiyasının düşməsinə vadar etsə də Filip ilə tanış olduqdan sonra ağıllı görünmək imkanı qazanır.

Filip əsərdə "xilasedici" [22, s. 54] olaraq təqdim edilir. Söhbət zamanı onun digərlərindən fərqli olduğunu hiss edən Filip digər obrazlara zidd çıxış edərək Meqqinin oxumasına kömək edir. Filipin Meqqiyə xoş yanaşması Meqqinin onu öz qardaşı ola bilmə xəyalına gətirib çıxarır: *"...I wish you were my brother. I'm very fond of you. And you would stay at home with me when Tom went out, and you would teach me everything..."* [15, s. 193] – *"...Kaş qardaşım olardın. Səndən çox xoşum gəlir. Tom çölə çıxanda mənimlə evdə qalardın və mənə hər şeyi öyrədərdin..."*

Filip Viktoriya dövrü ənənələrinə zidd olan kişi obrazı qismində təsvir edilir. O, həssas qəlbi ilə seçilir. Digərlərindən fərqli olaraq Filip Meqqiyə kişinin qadından üstün olması fikrini qeyd etmir.

Cənab Talliverin iflası müddətində də kişi və qadın arasındakı uçurumu görmək mümkündür. Yazıçı qadınların mülkiyyət hüququndan məhrum olduqlarını təsvir edərək özlərinə aid əşyalar üzərində heç bir hüquqa sahib ola bilməyəcəklərini tənqid edir. Belə ki, Viktoriya dönəmində qadınlara aid olan hər şey evləndikdən sonra kişinin öhdəliyinə keçir. Buna görə də həmin dövrdə qadınlar həyat yoldaşlarının icazəsi olmadan onlara aid olan əşyalarla bağlı qərar verə bilməzdilər. Bu fikirləri xanım Talliverin simasında evlənmədən öncə topladığı əşyaların iflas səbəbindən cənab Talliver tərəfindən əldən çıxarılması ilə təsdiqləmək mümkündür.

Corc Eliot həm xanım Talliverin, həm də Tom və Meqqinin haqlarının tapdalandığını oxucuya çatdırmaq istəyir. Əgər xanım Talliverin əşyaları üzərində hüquqi haqqı olsaydı, həyat yoldaşı ona baş verənlərdən əvvəlcədən bəhs etsəydi, bəlkə də problemin həlli daha asan olardı. Bunun nəticəsi olaraq, Tom erkən yaşda bütün məsuliyyəti çiyinlərində daşıyaraq ailəsini dolandırmağa çalışır, Meqqi isə məktəbi tərk etməyə məcbur olur.

Talliverlər ailəsi yanaşı, Dodsonlar ailəsinə də diqqət yetirilir ki, bu ailə vasitəsilə baş qəhrəmanın necə məhdudlaşdırıcı mühitdə böyüdüyü izah olunur.

Xanım Talliverin evli bacıları mütəmadi olaraq dəyirmana gəlir və hər şeyi Talliverlərin xeyrinə istəyirmiş təsir bağışlayırlar. Özlərinə xoş olan mədəniyyəti Talliverlər ailəsinə də tətbiq etmək niyyəti güdürlər.

Yazıçı müşahidələrinə əsasən Dodson bacılarını canlandırmışdır ki, Dodsonlar məhz C.Eliotun öz xalalarının əksidir. Onlar Evans ailəsindən bir neçə mil aralıda yaşamış, tez-tez Evans ailəsinə gedib-gəlmişlər.

Eliot tədqiqatçılarından olan Con Heqan *"Corc Elioutun xanım Talliver, Qleq, Pullet, cənab Stellinq və başqalarının timsalında əyalət həyatının satirik təsvirini verməklə Meqqinin həmin ortamdan qaçmaq arzusunu rəğbətlə qarşılamağımıza yol açır"* [20] kimi qeyd edir. Dodson ailəsinin riyakarlığı bacı-qardaşa maddi dəstəkdən imtina etdikdə özünü göstərir. Öz mənfəətlərini güdən Dodson bacılarından biri Qleq belə hesab edir ki, bu uşaqlara mənasız yerə pul xərcləməyin heç bir mənası yoxdur. Lakin Meqqi bütün cəsarətini toplayıb ailəsini müdafiə edir: *"Why do you come, then,' she burst out, 'talking and interfering with us and scolding us if you don't mean to do anything to help my poor mother-your own sister..."* [15, s. 224] – *"Madam ki yazıq anama – bacınıza kömək etmək istəmirsiniz, buraya niyə gəlmisiniz?"* Meqqinin sözləri, əslində, qadınların düşüncə azadlığını ifadə edir. Meqqi xalalarının ittihamlarına səssiz qalmır və başqa qadınların cürət edə bilmədiyi bacarır, amma cəmiyyət bu azadlığı qəbul etmir, hətta Meqqi bu səbəbdən tənqid olunur. Qardaşı onun hərəkətlərini pisləyərək xəbərdarlıq edir.

Xanım Talliverin bacılarının yanında Tom və Meqqi hər ikisi Viktoriyan dövrü ənənələrinə zidd olaraq kobudcasına davranırlar. Xanım Tulliver düşünür ki, bu davranış oğlanlar üçün normal haldır. Amma qızların ailəsini bəyənməmək kimi seçimləri yoxdur. Xanım Tulliver çox yaxşı başa düşür ki, yalnız Tom ailənin müdafiəçisi rolunu üzərinə götürə bilər.

Əsərdə diqqətçəkən əsas məqamlardan biri də Meqqi və Tomun nümayəndələri olduqları Dodsonlar və Talliverlər arasındakı fərqdir. Sosial nüfuza malik, materialist düşüncə tərzi ilə seçilən  Dodsonlardan fərqli olaraq, Talliverlər daha az nüfuza malik, emosional və duyğularına təslim olan şəxslər kimi diqqət çəkir. İki nəslin

xüsusiyyətlərinin vəhdəti isə Meqqi və Tomun inkişafındakı müxtəlifliyi əks etdirir. Tom yetkin yaşına çatdıqda Dodsonlara, Meqqi isə Talliverlərə oxşayır.

Tom və Meqqi arasında baş verən anlaşılmazlıqlar, əslində, Tulliverlər və Dodsonlar arasındakı münaqişəni əks etdirir. Simvolik olaraq bu münaqişəyə qəlb və beynin münaqişəsi kimi yanaşmaq olar.

Yaşa dolduqca Meqqi ilə Tom cəmiyyətin gözləntilərini qavramağa başlayır və buna uyğun hərəkət etməyə çalışırlar. Tom ana və bacısının məsuliyyətini üzərinə götürməklə yetkin bir kişi olmasını sübut etməlidir. O, belə bir məsuliyyətli işi həyata keçirərkən sosial mühakimədən, başqalarının onun haqqındakı fikirlərindən narahatlıq duyur, ətrafdakılar tərəfindən təqdir olunmaq istəyir. C.Eliot Tomun bu xüsusiyyəti ilə insanların cəmiyyətə uyğun olaraq həyatlarını formalaşdırdığı fikrini irəli sürür.

Meqqi də qardaşına bənzər şəkildə cəmiyyətə uyğun hərəkət etməyə başlayır. Ona xoşbəxtliyi yaşadan hər şeydən uzaqlaşmağa qərar verir və itaətkar bir qadın rolunu icra etməyə çalışır. Meqqinin bu dəyişikliyi xanım Talliverin gözündən qaçmır. Bir vaxtlar üsyankar qızının indi cəmiyyətin qanunlarına boyun əyməsi xanım Talliverin təəccübünə səbəb olur. İçindəki azadlıq arzusunu öldürən Meqqi cəmiyyət tərəfindən qəbul olunmağa can atır.

Filiplə yenidən qarşılaşmaq Meqqini xoşbəxt etsə də o, cəmiyyət normalarına uyğun hərəkət etməlidir deyə düşünür. Qardaşının onların münasibətini dəstəkləmədiyi üçün qəlbindəki sevgini gizlətməyə, uşaqlıq illərində yaşadığı həyatdan uzaqlaşmağa can atır. *“I wish we could have been friends, – I mean, if it would have been good and right for us. But that is the trial I have to bear in everything; I may not keep anything I used to love when I was little... I must part with everything I cared for when I was a child. And I must part with you; we must never take any notice of each other again. That was what I wanted to speak to you for”* [15, s. 311]. – *“Kaş dost ola bilsəydik, yəni bu bizim üçün daha yaxşı və doğru olsaydı. Amma bu, mənim sinə gərməli olduğum bir sınaqdır; Ola bilsin ki, uşaqlıqda*

*sevdiyim heç nəyi saxlamayacam... Uşaq vaxtı qayğı göstərdiyim hər şeydən ayrılmalıyam. Və səndən ayrılmaq məcburiyyətindəyəm".*

Göründüyü kimi Meqqi həyatında xoşbəxt sonluğun baş verəcəyinə inanmır. Digər tərəfdən isə o sevmək və silmək istəyir, Filiplə görüşməkdən imtina edə bilmir. Meqqi hesab edir ki, onun hisslərini anlayan yeganə şəxs Filipdir. Nəticədə, Filipin ona verdiyi xoşbəxtlik və ailəsi qarşısındakı vəzifələri arasında ziddiyyətli vəziyyət yaşayır.

Hisslərinə məğlub olan Meqqini qardaşı Tom atasının Veykmlə bağlı etdiyi xəbərdarlığa qarşı çıxan qız kimi qiymətləndirir. Meqqinin ailəsi qarşısındakı məsuliyyətini xatırladan Tom onun üzərindəki hökmranlığını göstərmiş olur. *"Tom vəzifəsini ənənəvi patriarxal terminlərlə müəyyən edir və qızın ata və qardaşa tabe olmasını tələb edən hakim dini və ictimai konvensiyaları əsas götürərək Meqqini ona tabe olmağa çağırır"* [26, s. 84].

Hələ erkən yaşlarından Meqqi öz daxili duyğuları və mövcud reallıq arasında ziddiyyət yaşayır. Bir gün Meqqi Tomun dovşanlarını yedizdirməyi unudur ki, bu da onların ölümünə səbəb olur. Tom bacısının ona olan hədsiz məhəbbətini bildiyindən qəzəblənərək sabah balıq tutmağa getməyəcəkləri, ondan nifrət etdiyi söyləyir, bununla da Meqqini cəzalandırır. Meqqi qardaşının məyus olmasını qətiyyən istəmir, amma unutqanlığı qardaşının ona əsəbləşməsinə gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, bu səhnədə də Viktoriyan dövrünün kişisinə xas xüsusiyyət Tomda özünü büruzə verir. Meqqi ölən dovşanların yerinə qardaşına pul təklif edir. Tom isə bacısını aşağılayaraq kişi cinsinə görə ondan çox pula sahib olduğunu üzünə vurur.

Meqqi xalası qızı Lyusi sayəsində Müqəddəs Oqq cəmiyyətinə daxil olanda tamamilə fərqli mühitdə olduğunu görür. Həyatı boyu fiziki görünüşünə görə tənqid olunan Meqqi burada əsl qadın roluna uyğun davranır. Lyusi Meqqi ilə Filip Veykm arasındakı münasibəti bildiyindən onları bir araya gətirir. Meqqi isə Lyusinin niyyətini anladıqda təlaşa düşür. O, bir tərəfdən qardaşına itaətdə qalmaq istəyir, digər tərəfdən öz seçimini etmək istəyir. Tom isə seçimi Meqqinin öz öhdəsinə

buraxır, verdiyi qərarların nəticələri ilə üzləşməyə vadar edir. Tom Meqqinin duyğularına məhəl qoymur, yalnızca onun davranışlarına görə narahat olur. Meqqi Filip ilə yenidən münasibətinin başlayacağı təqdirdə yaxşı hadisələrin baş verməyəcəyindən xəbərdardır. O, sadəcə keçmişini deyil, həmçinin gələcəyini düşünür. Viktoriyan cəmiyyətində “ideal qadın” obrazına uyğun gəlmədiyi fikri daima onu düşündürür.

Meqqi bu düşüncələrin içində özünü tapmamış başqa bir qəhrəman – Stiven ortaya çıxır. Stivenin xarakteri Filipin xarakterindən çox fərqlənir. Belə ki, Filip Viktoriya dövrü kişi idealına uyğun gəlmirsə, Stiven bu tələblərə uyğun gəlir. Stiven özünə hədsiz güvənərək kişi-qadın münasibətlərində dominantlığını qoruyur və qadınların itaətkar davranmasını istəyir.

Yazıçı Müqəddəs Oqq cəmiyyətindəki həyatı Lyusi və nişanlısı Stivenin münasibətləri fonunda ironik şəkildə təsvir edir. Yazıçının üslubu bu iki qəhrəman arasındakı münasibətlərin necə süni olduğunu ortaya qoyur. Stivenin laqeydliyi, himayədarlığı Filipin sadəliyi və təvazökarlığı ilə qarşılaşdırılır. Lyusinin Stivenlə nişanlanması onun sosial cəhətdən yüksəyə qalxması deməkdir. Lyusi uşaqlıq illərindən alışdığı itaətkar modelinə sadiq qalaraq Stivenə tabe omaqdan məmnun olur.

Stiven Meqqi ilə tanış olduqda onun gözəlliyinə heyran olur. Meqqi də Stivendən xoşu gəldiyini anladıqda ondan uzaqlaşmağa çalışır. O öz daxilində Stivenə qarşı yaranmış hissləri ilə mübarizə aparır. Amma Stiven Meqqinin diqqətini çəkməyə çalışır və buna nail olur. Qayığa minib səyahətə çıxdıqda Meqqi cəmiyyət üçün ən böyük səhvi edir. Corc Eliotun həyatına nəzər yetirilsə, Meqqi və Stivenin bu gəzintisi yazıçının Henri Luis ilə qayıqda gəzintisinə bənzədilə bilər.

Aralarında hər hansı bir yaxınlığın olmamasına rəğmən qadının kişi ilə gününü keçirməsi cəmiyyətin gözündə qəbuledilməz bir səhvdir. Bütün baş verənlərə görə Meqqi Stiveni günahlandırır, onun düşüncəsizliyindən istifadə etdiyinə görə Stiveni ittiham edir. Stiven isə onlara qarşı çıxanlara rəsmi nigahla cavab vermək təklifini irəli sürür. Meqqiyə görə onların evliliyi başqalarını xoşbəxt etməyəcək. Ona hər

kəsdən çox güvənən Lyusinin və onu sevən Filipin bədbəxtliyi üzərinə öz xoşbəxtliyini qurmağı düzgün qəbul etmir. Meqqinin evlənməkdən imtina etməsi patriarxal cəmiyyətə qarşı durduğunu göstərir. *"Meqqi ilə sevdiyi kişilər arasında təkrarlanan iradə savaşı, kişi basqısı və təkidi qarşısında mənliyini qorumaq üçün apardığı mübarizəni nəzərə alaraq Meqqinin Stiveni tərk etməsi vacibdir"* [7, s. 68] deyə professor Barret qeyd edir. Əgər Meqqi Stivenlə ailə həyatı qursa, cəmiyyəti razı salacaq, amma Filipi və Lyusini itirəcək. Bu səbəbdən o hər iki halda ona xoşbəxtlik gətirməyəcək bir seçim qarşısında qalır.

Meqqi hər şeyi gözə alıb geri qayıdır, artıq o, cəmiyyətin gözündə xalası qızına nişanlısı ilə xəyanət etmiş qadındır. O, uşaqlığından bəri "yaxşı qız"a məxsus heç bir xüsusiyyəti özündə daşımır. Özündən qat-qat yuxarıda olan xalası qızının nişanlısı ilə qaçaraq cəmiyyətin ona yaraşdırmadığını əldə edir ki, bununla da sanki cəmiyyətdən qisasını almış olur.

*"You have disgraced us all. You have disgraced my father's name. You have been a curse to your best friends. You have been base, deceitful... You don't belong to me".* [15, s. 506] – *"Hamımızı utandırdın. Atamın adını ləkələdin. Ən yaxın dostlarına lənət oldun. Alçaq, hiyləgər oldun... Sən artıq mənə aid deyilsən"* deyərək Tom da cəmiyyət kimi bacısından imtina edir. Təbii ki, Tom Meqqi kimi qadınları rədd edən Viktoriyan dövrü ənənələrinə sadiq qalır və ailə başçısı kimi öz məsuliyyətini yerinə yetirir. O düşünür ki, düzgün hərəkət edir, Talliverlər ailəsinin adına ləkə gəlməməlidir. Meqqinin səhv hərəkətlərinin qarşısını almaqda çıxış yolu onu cəzalandırmaqdır.

Corc Eliot da 1855-ci ildə Britaniyaya qayıdanda cəmiyyət tərəfindən qınaq obyektinə çevrilir, heç kəs ona hörmətlə yanaşmır, hətta bəzi qadın rəfiqələri belə ondan üz döndərir.

Müqəddəs Oqqda yaşayan insanlar da cəmiyyətin qurbanları olmuşlar ki, hadisələrin səbəbini öyrənmədən Meqqini mühakimə edirlər. Qadınlar Meqqi haqqında danışmağa başlayırlar, amma Meqqinin başqalarına zərər gəlməsin deyə Stivenin təklifini rədd etdiyi barədə heç bir məlumatlarları yoxdur. Corc Eliot bu

səhnədə xüsusilə qadınların başqa bir qadın haqqındakı mənfi düşüncələrinin eybəcərliyini əks etdirir.

Hətta insanlar Stivenin Meqqidən qaçıb canını qurtardığını söyləyirlər. Viktoriya dövründə kişi və qadınların başlarına gələn bədbəxtliklərin xoşagəlməz nəticələrində bərabərsizlik var idi. Həmin dövrdə evlənməyən qadınlara bəxtsiz kimi baxılırdısa, kişilərə bunun əksinə olaraq, hörmət duyulurdu. Buna görə Meqqinin davranışı düzgün qiymətləndirilmir. Meqqi Stivenlə evlənib geri dönsəydi, bəlkə də onun səhvi unudulacaqdı. Lakin o, intiqamını alandan sonra mütləq şəkildə Tomdan öyrəndiyi kimi özünü cəzalandırmalıdır.

Müqəddəs Oqqda insanlar Meqqinin onlarla birgə yaşaması qəbul etmirlər. Hər nə qədər qəhrəman cəmiyyətdən uzaqlaşsa da bir tərəfdən də mübarizəsini saxlamır. Meqqinin qəbul olunmadığı cəmiyyətdə yaşamaq üçün göstərdiyi əzmi onu qovmaq niyyətində olan insanlara boyun əyməyərək necə cəsarətli olduğunu sübut edir. Həmçinin Meqqinin cəmiyyətə qarşı dik durması haqsız olmadığını göstərmək üçündür. Meqqini özündən uzaqlaşdıran cəmiyyət onun yolunu yönləndirmək bacarığını əlindən ala bilmir.

*“Fərdlər hətta qorxunc vəziyyətlərdə belə onlar üçün nəyin vacib və mənalı olduğuna əsaslanaraq seçim edirlər. Onlar seçim gücündən istifadə edə və istədikləri kimi bir həyat sürmək üçün öz ürəklərinin səsini dinləyirlər”* [16, s. 75]. Meqqi də ürəyinin səsinə qulaq asır və doğru olduğuna inandığı şeyi edir.

Meqqinin seçimləri nəticəsində Tomla xoşbəxt olmaq şansı əlindən alınmışdır. Amma qəsəbəni su basanda cəsarətli davranıb qayığa minir, təhlükəyə baxmayaraq, anasını və qardaşını xilas etməyə can atır. O, mütləq şəkildə qardaşı ilə barışmalıdır, onunla barışmadan ölmək istəmir. Bacı və qardaş, nəhayət, qucaqlaşıb keçmişdəki gözəl günlərini xatırlayır. Bununla da Tom Viktoriyan ənənələrini pozaraq Meqqini tək qoymur. Bacı-qardaşın həyatlarının sona çatması ilə cəmiyyətin onların arasına çəkdiyi sədd dağılır və bütün məhdudiyyətlərdən yaxa qurtarırlar.

Romanda Meqqi və Tomun həyatı barışaraq sonlanırsa, Eliot qardaşı İshaqla bu barışığa nail ola bilmir.

Yekun olaraq, qeyd etmək olar ki, Corc Eliot bu romanında dövrün kişi-qadın ayrıseçkiliyi, təbəqələrarası toqquşmaları, təhsilin əhəmiyyəti, əxlaq məsələləri kimi problemləri bütün dərinliyinə kimi təqdim etməyi bacarmışdır. Eləcə də keçmişin indiki kimliyimiz üzərindəki iddiası, mərhəmətin önəmi, cəmiyyətin fərd üzərindəki təsiri kimi mövzulara xüsusi diqqət yetirmişdir.

## 2.2 "Floss çayı üzərində dəyirman" romanında Meqqi və əyalət həyatına üsyan.

"Floss çayı üzərində dəyirman" əsəri Corc Eliotun digər əsərlərindən fərqlənir. Yazıçının digər əsərlərində obrazlar yetkinlik yaşına çatdıqda üzləşdiyi problemləri təhlil edildiyi halda adı çəkilən əsərdə baş qəhrəman Meqqinin uşaqlığından başlayaraq keçdiyi dönəmləri təsvir edilir. Buna görə də tədqiqatçılar bəzən əsəri tərbiyə romanı qismində şərh edirlər. Amma tərbiyə romanlarında daha çox kişi cinsindən olan qəhrəmanlardan istifadə olunurdu ki, bəlkə də yazıçı bununla bu tip əsərlərə qarşı tənqidi münasibətini bildirirdi.

Romanda protaqonistin hissləri çox incə şəkildə işlənilir ki, onun daxilində yatan intellektual düşüncələri şəxsiyyətini formalaşdırdıqca cəmiyyətin çərçivələrinə sığmır.

Corc Eliot yaratdığı Meqqi obrazı ilə gender məsələsini qabartmış, qadınların Viktoriyan əxlaqına uyğun hər cür çətinliklərlə üzləşməsini xüsusilə qeyd edir.

Meqqinin dünyası uşaqlıq illərindən bəri tamamən ayrıdır. Çardaqda keçirdiyi vaxt, dəyirman, kitablar onun xəyal dünyasını bəzəyir. Uşaqlıqda Meqqi ilə xanım Talliver və Dodsonlar ailəsi arasında baş verən münaqişələr çətinliklərinin başlanğıcına işarə edir. Meqqi qarşı tərəfin fikirlərinə üsyankar münasibət bəsləyir və onun xəyal dünyasında qarşı çıxdığı dəyərlərə yer yoxdur. Anası ilə mübahisədən sonra qızcığaz çardağa sığınır və anasının intiqamını gəlinciyindən almağa çalışır.

Tom bu münasibətlərdə neytral mövqedə dayanır. O elə hesab edir ki, hər kəs etdiyi səhvlərin bədəlini ödəməlidir. Səhv hərəkət etdikdə öz səhvinin fərqinə varır və

cəzasını çəkməyə hazırdır. Meqqi isə ancaq cəmiyyət tərəfindən qəbul olunmayan səhv etdikdə bunun fərqinə varır. Meqqi qərar verərkən ağlı ilə deyil, hissləri ilə hərəkət edir.

Meqqinin günahkarlıq hissi qeyri-iradi hərəkətlərinin nəticəsi olaraq ortaya çıxanda bacı-qardaş arasındakı konflikt daha da dərinləşir. Meqqi Lyusini nə qədər çox istəsə də anasının, xalalarının, hətta Tomun Lyusini ondan üstün tutduğuna görə Lyusiyə qısqanclıq hissi bəsləyirdi. Bir gün üçü birlikdə kartlardan ev düzəldəndə Tom Lyusinin kartlarla davranmasının incəliyinə heyran qalır. Bu zaman Meqqinin düzəltdiyi ev dağılır k və Tom gülməyə başlayır və onu axmaq adlandırır ki, bu Meqqini daha da qəzəbləndirir. *"Don't laugh at me, Tom!" she burst out angrily; "I'm not a stupid. I know a great many things you don't." "...I like Lucy better than you; I wish Lucy was my sister"* [15, s. 89]. *– Mənə gülmə, Tom!" o, qəzəblə söylədi; "Mən axmaq deyiləm. "Mən sənin bilmədiyin çox şeyi bilirəm". "...Mən Lyusini səndən çox istəyirəm; Kaş Lyusi mənim bacım olaydı"*. Meqqidə yaranan qısqanclıq və qəzəb Lyusini palçığa itələməyə sövq edir. Lakin Meqqi uşaq vaxtı Lyusini palçığa ata bilirsə, böyüdükdə Lyusi üçün özünü "palçığa atmağı" seçir.

Meqqinin üz quruluşu Viktoriyan dövrü qadınlarının üz quruluşundan fərqləndiyinə görə fiziki cəhətdən əksik hesab olunur. Viktoriyan dövründə qadınlar yuvarlaq, çəhrayı yanaqları, böyük gözləri, kiçik burunları ilə seçilirdilər. Meqqi bu tələblərə cavab vermir. Ona görə də Lyusi çox dəyərli olduğu halda, Meqqi xalaları tərəfindən o qədər də xoş qarşılanmır.

Lyusi qəlibləşmiş qadın tipini təcəssüm etdirir. Bu obraz vasitəsilə Eliot qadın olmaq barədə narahatlığını ifadə edir. Lyusi tam olaraq xanım Talliverin arzusunda olduğu qızdır. Hətta cənab Talliverlə söhbəti zamanı Lyusinin bacısından çox onun qızı olduğuna inandığını qeyd edir. Bu baxımdan Lyusi ilə xalası arasındakı bənzərliyi vurğulamaq olar. Bununla belə, Meqqi kimi olmasa da Lyusi xalasından qat-qat intellektualdır. Öz bacarıqlarını göstərməsində, nişanlısı ilə münasibətlərində bu xüsusiyyət ortaya çıxır.

Müəllif Meqqi vasitəsilə qadının davranışının, xarakterinin onun sosial statusunu müəyyənləşdirməkdə rolu olduğunu göstərməyə çalışır. Məhz onun tünd, saçı və dərisi çirkinliyinin göstəricisi kimi aid olduğu təbəqədən kənarda qalmasına səbəb olmuşdur.

Meqqiyə əyalət mühiti sıxıcı gəlir ki, o bu mühitin qaydaları ilə barışa bilmir, eyni zamanda onlardan qurtula da bilmədiyinə görə mühitə uyğunlaşmağa can atır. Buna baxmayaraq, onun hərəkətlərini anlıq hissləri idarə edir və "Evdəki mələk" surətini darmadağın edir.

Meqqi artıq yetkinlik yaşına çatdıqda "xoşagəlməyən" tünd rənginə baxmayaraq, gözəl qadına çevrilir və digər qadınlardan intellekti ilə də seçildiyinə görə diqqət çəkməyə başlayır. O, qadınların qısqanclıq obyektinə çevrilsə belə yenə də özünü Lyusidən aşağı hiss edir. Uşaqlığından bəri cəlbedici olmadığına inandırılan Meqqi heç cür mövcud vəziyyətlə barışa bilmir.

Meqqi insanların ona fərqli yanaşmasını anlamağa çalışır. Bu fərqliliyi aradan qaldırmaq üçün arzularını yox etməyə çalışır ki, bu da ona sevinc gətirmir. Amma o, fərqindədir ki, başqa yolla cəmiyyət tərəfindən qəbul edilib həyatda qala bilməz. Filip Meqqini özü kimi olmağa səsləyən yeganə obrazdır. Filip elə hesab edir ki, özünü inkar etmək intihara bərabərdir.

Meqqi duyğularını necə idarə edəcəyini heç cür öyrənə bilmir. İntellektual cəhətdən böyüsə də, emosional cəhətdən yerində sayır. Meqqinin emosional cəhətdən inkişaf etməməsinin ən böyük səbəbi daim münaqişənin içində olmasıdır. Bu münaqişələr nəticəsində Tom Meqqidən sevgisini əsirgəyir. Meqqinin Tom tərəfindən dəstəklənməyi gözlədiyi halda bunun baş verməməsi onu daha da geriyə aparır. Onun tam böyüməsi daxili mənliyi ilə xarici dünya arasındakı harmoniyaya uyğun olardı ki, Meqqi bu harmoniyaya romanın sonunda ölümü ilə çatır.

*"It is a wonderful subduer, this need of love, – this hunger of the heart, – as peremptory as that other hunger by which Nature forces us to submit to the yoke, and change the face of the world"* [15, s. 37]. – *"Sevgi ehtiyacı, qəlbin aclığı təbiətin bizi boyunduruğuna tabe olmağa və dünyanı dəyişdirməyə məcbur etdiyi aclıq kimi*

*amansızdır”.* Bu cümlələr Meqqinin hədsiz sevgi və şəfqətə ehtiyacı olduğunu ortaya qoyur. Meqqinin “aclığı” fiziki aclıqla əlaqələndirilir. Obrazların güc almaq üçün istifadə etdikləri sevgi burada alçaldıcı formada əks etdirilir. Aclıq insanları davranışlarına və ətraf mühitə uyğunlaşmağa məcbur edir ki, eynilə Meqqinin sevgiyə ehtiyacı da onun üzərində formalaşdırıcı bir qüvvəyə çevrilir.

Tomun həyatda müəyyən məqsədləri var. *“Tomun güclü iradəsi onun bütövlüyünü, qürurunu, ailəsinin peşmançılığını və şəxsi ambisiyalarını birləşdirir”* [17, s. 104]. Tomun xarakteri bir bütün şəkildə çıxış edirsə, Meqqinin xarakteri bunun əksinə olaraq özü ilə vəhdət təşkil etmir. Təbiəti etibarilə Meqqinin kiməsə boyun əyməsi, kimdənsə asılı olması onun üçün işgəncədir.

Meqqi intellektual qadın qismində təqdim edilsə belə, hər halda o, “qadın”dır və dövrün ənənələrinə uyğun olaraq iradəsi yoxdur. Nə qədər çırpınıb öz yolunu tutmağa çalışsa da əlindən heç nə gəlmir. Hər dəfə Tomdan uzaq düşəndə ondan ötrü darıxır. Ancaq bu, sadəcə qardaş həsrəti deyil, onu idarə edən iplərin yoxluğundan yaranan narahatlıqdır.

Meqqi yetkin yaşına çatdıqda ailəsinin başına gələn çətinliklər ucbatından əziyyət çəkir və Tomas Kempisin kitabının qarşısına çıxması onun mənəvi vəziyyətinin səsinə çevrilir. Tomas Kempis İntibah dövrünün tanınmış keşişi, həmçinin yazıçısı olmuşdur. Əsərlərinin çoxu ibadətlə bağlı olub müqəddəslərin həyatından bəhs edir ki, bu əsərlərdə dünyəvi zövqlərdən uzaqlaşmağı təbliğ edir. Tomas Kempis insanın özünə qayğı göstərməkdən əl çəkib, əvəzinə qeyri-dünyəvi dəyərlərə və başqalarının əzablarına diqqət yetirməyi tövsiyə edir. Öz bədbəxtliyini başa düşmək üçün bir yol axtaran Meqqi Tomas Kempisi oxumaqla təsəlli tapır. Lakin onu Valter Skottun əsərləri ilə cəlb edən Filip Meqqidə həyat eşqini yenidən oyadır.

Meqqinin çətin zamanlarında kitablara sığınmasını müəllifin atasının ölümü ilə başa çıxmaq üçün kitablara yönəlməsi ilə əlaqələndirmək olar.

Meqqinin Filipə fiziki qüsuruna baxmayaraq, sevgi bəsləməsi qadının mərhəmətli olmasının vacib buyurulduğunu təcəssüm etdirir. İlk dəfə Filipi görəndə

onu boynu əyri quzularla müqayisə etməsi "qoyun"la müqayisə edilən Meqqinin özü kimi ortaq cəhət sayılır. Qarabəniz, üsyankar bir qız yalnız qüsurlu biri ilə bərabər ola bilər. Amma Filip yalnız Meqqiyə uyğun olduğu üçün əsərdə yer almır. Belə ki, o həm də Meqqinin öz daxili aləmi ilə üzləşməsidir. Meqqi nə vaxt özündən uzaqlaşırsa, həmin an Filiplə bağlı hadisələr verir: o ya Filiplə qarşılaşır, ya ondan məktub alır.

Meqqi Filip ilə görüşməyə başladıqdan sonra tutduğu işin məsuliyyətindən çəkinməyə başlayır. Filiplə səmimi münasibət qurması atasına xəyanət etmək sayılırdı. *"Meqqi daxilində intizardan əziyyət çəkir, həmişə ani təəssüratdan kənara çıxır"* [25, s. 24]. Filip Meqqinin xarakterindəki qeyri-sabitliyi görür və konfliktlər içində yaşamağı, davranışları arasında vasitəçi olmağı söyləyir. Amma görünür ki, Meqqi ailə münasibətləri və emosional qarşıdurma nəticəsində ağıl və qəlb arasında tarazlıq əldə etməyi qeyri-mümkün hesab edir.

Stivenlə qaçdığına peşman olan Meqqinin ondan imtina etməsi təkcə Viktoriyan dəyərlərə sadiq qalması deyil, eyni zamanda Meqqi özünü Stivenə yaraşdırmır. Stiven yalnız Lyusiyə yaraşır ki, onun kimi mükəmməl qadınlar Stivenə layiqdir. Meqqinin geri dönmək qərarı Tomun onun haqqındakı sözlərində gizlidir ki, Meqqi şüuraltında nə iradəsinin, nə də ağlınının olmasına inanır.

Filip Meqqiyə onu bağışladığına dair məktub yazır ki, bu məktubda ona duyğularını yaşamağa məcbur etdiyi üçün üzr istəyir. Filip Meqqinin səhvlərində öz rolu olduğunu dərk edir. Lyusinin də Meqqi ilə görüşüb Meqqinin niyyətinin onu incitmək olmadığını bildirmək cəmiyyətdən uzaq düşmüş Meqqiyə təsəlli verir və Meqqi Stivendən uzaqlaşmaqla doğru qərar verdiyini hiss edir. Meqqi hesab edir ki, təkcə bir nəfərin şəfqəti belə toplum tərəfindən rədd edilmə hissini yumşalda bilər.

Əsərin sonunda Tom öləcəksə, Meqqi də onunla birgə həyatla vidalaşıb öz adını təmizə çıxarmalıdır. O, qardaşına o qədər bağlıdır ki, qardaşının olmadığı bir dünyada Meqqiyə də yer yoxdur. Meqqiyə hər zaman qardaşının kölgəsində dayanmalı olduğu aşılanmışdır. Böyüdükcə özü qardaşının kölgəsində daldalanmaqda könüllü olmuşdur. C.Eliot qardaşı ilə arasındakı münasibətlərdən yola çıxaraq Meqqi

obrazı cəmiyyətin ondan gözlədiyi, ancaq həyata keçirə bilmədiyi hər davranışına məhkumdur.

Romanda daha çox Meqqi Talliver və onun uşaqlığından gəncliyinə qədər keçdiyi yol araşdırılır, amma dövrün dəyişən icmasının arxa fonda təsviri həmin illərdə İngiltərədə baş verən sosioloji və iqtisadi dəyişiklikləri göstərməyə nail olur. Ceremi Talliver, Dodson bacıları vasitəsilə təsvir olunan yerli əyalət münasibətlərinin ənənəvi üsulları buna sübut ola bilər.

Eliot əsərdə Talliverlərin timsalında 1830-cu illərə məxsus sadə, saf həyatı nümayiş etdirir. Əsərin 1860-ci ildə çapdan çıxdığı nəzərə alınsa, yazıçının retrospeksiyadan istifadə etdiyini söyləmək olar. Talliverlərin iflası məhz dövrün sonu olur və bu məqamda Veykm yeni materialist dövrün simvolu kimi ortaya çıxır.

Roman boyu cənab Dinin necə irəlilədiyini və xanım Dini Dodson bacılarının ən uğurlusuna çevirdiyini görmək olar. Din özü bu dəyişikliyin səbəblərindən biri kimi buxar maşınını mixal gətirir. O, kənd təsərrüfatı dövrünün artıq tənəzzülə uğradığını, ticarət dövrü ilə əvəz olunduğunu onunla izah edir ki, əmtəə mübadiləsini inkişaf etdirmək lazımdır. Tomun atasının borclarını silmək üçün ən asan yolu malları ucuza alıb gəlir qazanmaq üçün satmaqdır. Bu cür iqtisadi qüvvələrin cəmiyyətə necə təsir etdiyi əks etdirilir ki, mal-dövlət daha tez qazanılır, icma iyerarxiyası o qədər də sabit deyil. Bununla da Müqəddəs Oqq cəmiyyətində gənclərə evlilik seçimində əvvəllər olduğu kimi məhdudiyyət yoxdur. Stivenin Lyusi və ya Meqqi ilə ailə həyatı qurması problem yaratmır, hətta Veykm oğlu Filip ilə Meqqinin evliliyinə razı ola bilər.

Oxucu romanda Filipin Meqqiyə çox şey öyrətdiyini görsə də Meqqiyə ən çox təsir edən obraz Tom olur. Tomun davranışları Meqqinin həssas qəlbinə mənfi təsir göstərir. Uşaq vaxtı Tom Meqqinin sevgisini rədd etməklə onda sevgi həsrəti yaradır. Yaşa dolduqca Meqqinin daxili mübarizəsində dəyişən də Tom olur. Bir vaxtlar Meqqinin səhvləri onun tələskənliyinin nəticəsi kimi qəbul edilirdisə, Filiplə gizli görüşü zamanı Tomun Meqqiyə bu vəzifəsini düzgün yerinə yetirə bilmədiyi üçün səhvlərə yol açdığını üzünə vurur. Protaqonistin uğursuzluqlarının ailəsi qarşısında

vəzifəsi təyinatı, sevgi və öhdəsinə düşən vəzifəsi arasında seçimi onun daxili mübarizəsinə təkan verir. Həmçinin Meqqi Tomla keçirdiyi uşaqlıq dövrünü xatırlayır ki, bu da Tomun bacısına göstərdiyi təsirdən irəli gəlir. Əsərin sonunda bac-qardaşın birlikdə boğulması səhnəsi Meqqinin inkişafında Tomun mərkəzi rolunu təsdiqləmiş olur.

Tomun köməyinə gələn Meqqi özü ilə birgə qardaşının ölümünə səbəb olur ki, bunu Meqqinin patriarxal cəmiyyətdən qisası kimi də düşünmək olar. Eyni zamanda Meqqinin suda boğulması qadınların kişilərə tabe olduğu cəmiyyət ideologiyasından yaxa qurtarmaq üçün qərar verdiyi ölüm arzusu kimi şərh edilə bilər. Meqqi əvvəlcə Viktoriyan ənənələrinə sadiq qalmaqla kişi üstünlüyünü təmsil edən qardaşını yox edir, sonra qadınların səsini boğmağa çalışan cəmiyyətin formalaşdırdığı özünü məhv edir.

Meqqinin ölüm arzusu başlarını suya batıran ördəklərə baxaraq onlara həsəd aparmasında özünü göstərir. *"Qadınların tənəzzülə bu cür məftun olması güc əldə etmək vasitəsidir"* [18, s. 485]. Meqqinin suya olan heyranlığı da mənsub olduğu Müqəddəs Oqq cəmiyyəti tərəfindən idarə olunmaqdan imtina etməyə güc verir.

Əsərdə xoşbəxt xalqlar kimi qadınların da tarixi olmadığı dilə gətirilir ki, bu şərh bəlkə də qadınların kişilərdən daha çox tarixdə yox olduğunu izah edir. Həmçinin, bu şərh Meqqinin faciəvi statusa malik olmasını göstərməklə yanaşı, yazıçının həyatı mübarizə kimi təqdim etməsinə işarədir. Eliotun fikrincə, əvvəlki nəslin qəbul etdiyi qayda-qanunlardan kənara çıxmaq çətinliklərlə üzləşməkdir.

Romanın təhlili zamanı diqqət çəkən əsas nüanslardan biri müəllifin işlətdiyi simvollardır. Romanın adı dövrün bir-birinə zidd olan iki prinsipini birləşdirir. Belə ki, dəyirman Talliver ailəsinin patriarxal normalarını əks etdirir, Floss çayı isə protaqonistin – Meqqinin həssas qəlbini simvolizə edir.

Floss çayının dərinliyi və aşıb-daşan halları Meqqinin daxilindəki dərin və gözlənilmədən dəyişən duyğularını xarakterizə edir. Eləcə də əsərdə Floss çayının keçdiyi yolların xəritədə verilməməsi Meqqinin tale yolunun gözlənilməz şəkildə dəyişməsini simvolizə edir: *"Maggie's destiny, then, is at present hidden, and we*

*must wait for it to reveal itself like the course of an unmapped river: we only know that the river is full and rapid, and that for all rivers there is the same final home”* [15, s. 418]. – *“Hal-hazırda Meqqinin taleyi gizlidir və biz onun xəritədə göstərilməmiş çayın axarı kimi özünü büruzə vermәsini gözləməliyik: biz yalnız çayın gur və sürətli olduğunu və bütün çaylar üçün eyni son mənsəb olduğunu bilirik”.* Deməli, Floss çayının hərəkəti Meqqinin narahat həyatının axışını ifadə edir. Çayın səsi kişilərin hakim olduğu mədəniyyətə uyğun gəlməyən hissləri təcəssüm etdirir.

Eyni zamanda uşaq olarkən Meqqinin çayın ətrafında gəzişməsi xanım Talliveri narahat edir. O, daima qızının bir gün çaya düşüb boğulacağından şikayətlənir. Bu motiv Meqqinin taleyini əvvəlcədən müəyyənləşdirməyə kömək edir.

Tomun da müəyyən qədər çayla bağlılığı vardır ki, bunu dostu Bob Ceykin ilə illər öncə baş vermiş daşqın barəsində söhbətində görmək olar. Tom yenidən belə bir hal baş verərsə, necə davranacağını təsəvvür edir.

Floss çayı ilə bağlı bir məqamı da qeyd etmək mümkündür ki, Meqqi cənab Rayli ilə kitabda əksini tapan yaşlı bir qadının çayda boğulmasını təsvir edən rəsmə baxaraq müzakirə aparırlar. Rəsimdə yer alan yaşlı qadının cadugər olub-olmamasını müəyyənləşdirmək üçün onu çaya atırlar. Əgər qadın suda üzməyi bacarsa, deməli, o, cadugərdir, suda boğulsa, cadugər deyil, tamamilə günahsızdır. Rəsimdə də göstərildiyi kimi qadın suda boğulmuşdur, bununla da onun məsum olduğu ortaya çıxmışdır. Bu təsvir Meqqinin taleyi ilə səsləşir ki, insanlar onu günahlandıraraq “suda boğulmağa” itələyirlər. Bəs rəsimdəki yaşlı qadının suda boğulmasının faydası nədir? deyə soruşulanda onun cənnətə gedəcəyi fikri səsləndirilir ki, Meqqinin də çayda boğulması günahlarının bağışlanmasını xarakterizə edir.

Romandakı əsas hadisələrin baş verdiyi Müqəddəs Oqq qəsəbəsi də simvolik məna daşıyır. Qəsəbənin əfsanəvi qoruyucu əzizi hesab edilən Müqəddəs Oqq Floss qayıqçısı olub. Əfsanəyə görə bir gecə uşaqlı bir qadın çayın digər tayına keçmək istəyir, lakin güclü külək olduğundan heç bir qayıqçı onları aparmağa razılıq vermir. Yalnız Oqqun ehtiyac içində olan qadına yazığı gəlir və onları götürür. Çayın qarşı tərəfinə çatdıqda qadının cır-cındır içindəki paltarları yeni qiyafələrə çevrilir və o

özünün Müqəddəs bakirə Məryəm olduğunu söyləyir. Bakirə Oqqun qayığına minən hərkəsi güvənli və təhlükəsiz şəkildə saxlayacağını bildirir və həmişə gəminin baş hissəsində oturur: *"Blessed Virgin sat in the prow, shedding a light around as of the moon in its brightness, so that the rowers in the gathering darkness took heart and pulled anew"* [15, 122]. – "*Müqəddəs Bakirə qayıqda oturdu, ayın parlaqlığı kimi ətrafa işıq saçdı, beləcə, qaranlıqda toplaşan avarçəkənlər ürəkləndi və yenidən kürəkləri çəkdilər".* Meqqi Stivenlə birlikdə qayıqda keçirdiyi gecə bununla bağlı bir yuxu görür. Burada Tom və Lyusi kürək çəkərək yanlarından keçirlər və sanki Tom Müqəddəs Oqq, Lyusi isə Müqəddəs Bakirədir: *"They saw it was the Virgin seated in St. Ogg's boat, and it came nearer and nearer, till they saw the Virgin was Lucy and the boatman was Philip"* [15, 493]. – "*Onlar gördülər ki, bu, Müqəddəs Oqqun qayığında oturan Bakirədir və o, getdikcə yaxınlaşırdı, ta ki bakirənin Lyusi, qayıqçının isə Filip olduğunu görənə qədər".* Gördüyü yuxu Meqqinin Stivenlə keçirdiyi gecə boyunca incitdiyi bu şəxslərə mərhəmət bəsləməməsi qorxusunu, eləcə də gələcəkdə özünə də mərhəmət bəslənməyəcəyindən duyduğu qorxunu açıqca ortaya qoyur. Lakin sonda görürük ki, Müqəddəs Oqq Tom yox, məhz Meqqidir. Çünki Floss çayı daşan zaman Tomu xilas etmək üçün Meqqi bir növ, "möcüzəvi, ilahi qoruyucu" qismində özünü qurban verir.

Eyni zamanda yazıçı burada ortodoksal dinin nə qədər geridə qaldığını nümayiş etdirmək istəyir. Belə ki, cənab Stellinq yalnız öz nüfuzunu düşünən din xadimi, cənab Talliver Veykmdən intiqam almaq üçün "İncil"ə and içən ata kimi çıxış edir. Obrazların əksəriyyəti dini ənənəyə malik olsalar da inandıqları dinin onların həyatını dəyişməyə imkanı çatmır. Müqəddəs Oqqda yaşayan insanların bir çoxu üçün din yox olmuş ritual hesab edilir. Kilsə ənənələrinə sadiq qaldıqlarını göstərsələr də əsl inancları öz adət-ənənələrində, öz daxilindədir.

Müəllif Meqqinin gözlərini onun ən diqqət çəkən xüsusiyyəti kimi təsvir etmişdir. Əsərdəki bütün kişilər: Stiven, Bob Ceykin, Filip ilk növbədə Meqqinin gözlərinə diqqət yetirir və ona məftun olurlar. Meqqinin gözləri ilk növbədə, onu tragik bir xarakter edən sevgiyə olan aclığının, hisslərinin dərinliyinin və daxilindəki

emosional gücün simvoludur. Meqqinin gözləri insanlara baxaraq onları daşa çevirən mifik varlıq Meduzanı xatırladır. Belə ki, Meqqinin müəllimi və müəyyən mənada ilk məhəbbəti olacaq Filip onun "doyumsuz zəka və sevgiylə dolu, məhəbbət diləyən" gözlərini görür. Eləcə də, Meqqini özündən üstün və heyran olunması lazım olan bir fiqur kimi görən Bob Ceykin onun qeyri-adi gözlərə sahib olduğunu, müəmmalı şəkildə ona heç bir şey hiss etdirmirmiş kimi göründüyünü bildirir. Və son olaraq, Meqqinin roman boyu hiss etdiyi daxili mübarizəsindən istifadə edəcək Stiven onun gözlərinin "xoşagələn ziddliklərlə dolu" olduğunu söyləyir.

İncəsənətin əsas qollarından olan musiqi də bu romanda xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Meqqinin musiqi dinləyən zaman onu incidən və narahat edən hər şeyi unudub az qala huşunu itirəcək dərəcədə emosiyalarına qapıldığını görmək mümkündür. Hətta Stiven Meqqini sözlərlə deyil, musiqi ilə valeh edir. Stivenin oxumağı onu əyləncədirəcək qədər güclü, müqavimət göstərə bilməyəcək qədər zəif edən müəyyən emosiyalar yaradır. Meqqi hər şeyi başqalarına nisbətən daha çox emosiya ilə yaşayır və bunu vurğulayacaq vasitə kimi isə romanda musiqidən istifadə olunmuşdur. *"I think I should have no other mortal wants, if I could always have plenty of music. It seems to infuse strength into my limbs, and ideas to my brain. Life seems to go on without effort, when I am filled with music. At other times one is conscious of carrying a weight"* [15, s. 399]. – *"Hesab edirəm ki, musiqi ilə gen-bol məşğul ola bilsəydim, başqa heç bir fani istəyim olmayacaqdı. Görünür ki, musiqi əzalarıma güc, beynimə ideyalar aşılayır. Musiqi ilə olduğumda sanki həyat heç bir səy göstərmədən davam edir. Başqa vaxt insan ağır yük daşıdığını hiss edir".* Bu sahədə istedadı olmamasına baxmayaraq, musiqi Meqqiyə kədərini unutmağa imkan verir.

Romanda diqqətçəkən məqamlardan bir başqası isə poni, it, ördək kimi bir sıra heyvanların təsvirdir. Bu təsvirlər müəyyən mənada əyalət həyatı yaşayan Tom və Meqqiylə əlaqədar olub onların təbiətlə vəhdətinə işarə edir. Eliot bu təsvirlərdən insanlar, xüsusilə də kiçik yaşlı uşaqlar və heyvanlar arasındakı yaxın əlaqəyə işarə vermək məqsədilə işlətmişdir.

Xarici görünüş məsələsi də əsərdə maraq doğuran nüanslardandır. Belə ki, göz, saç və dəri rənginin açıq, yaxud tünd olmağı bu əsərdə obrazlararası fərqlilikləri üzə çıxarmaqda istifadə olunur. Xüsusən də Meqqinin görünüşünün unikallığını vurğulamaq üçün rəng motivindən daha çox istifadə olunur. Həmçinin, açıq və tünd rəng motivi Dodsonlar və Tulliverlər arasındakı fərqlə də əlaqələndirilə bilər. Tulliverlərin dərisi daha tünd, Dodsonunlarınkı isə daha açıqdır. Lyusi ağbənizdir və yerli camaat onun açıq rəngliliyinə qibtə edirdilər. Lyusidən fərqli olaraq Meqqi ağbəniz deyil, ailəsi onun qarabənizliyini çirkin və qeyri-təbii hesab edir. Lakin romanın sonunda məlum olur ki, Meqqinin qarabənizliyi kişilərin onu daha gözəl qəbul etməsinə səbəb olur.

Meqqinin oxuduğu kitaba şərh ağ və ya sarışın olmamağın acısını açıqca gözəl təsvir edir. *"I didn't finish the book," said Maggie. "As soon as I came to the blond-haired young lady reading in the park, I shut it up, and determined to read no further. I foresaw that that light-complexioned girl would win away all the love from Corinne and make her miserable. I'm determined to read no more books where the blond-haired women carry away all the happiness. I should begin to have a prejudice against them. If you could give me some story, now, where the dark woman triumphs, it would restore the balance"* [15, s. 344]. – *"Mən kitabı bitirə bilmədim" deyə Maggie cavab verdi. Parkda roman oxuyan sarı saçlı qızın yanına çatan kimi kitabı bağladım. Və davam etməməyə qərar verdim. Mən hiss etdim ki, o ağbəniz qız Korinin sevgisini əlindən alıb onu bədbəxt edəcək. Sarı saçlı qadınların bütün xoşbəxtliyi ələ aldığı romanları oxumamaqda qərarlıyam. Sarışınlara qarşı az qala qərəzlərim yaranmağa başlayır. İndi mənə qarasaçlı qadının qalib gəldiyi bir roman versəniz, tarazlıq bərpa olunacaq".*

Yazıçı Meqqini qaraçılara bənzədir ki, Meqqi də qaraçılar kimi cəmiyyət tərəfindən heç cür qəbul olunmur. Eliot qadın xarakterini aid olduğu sosial təbəqəyə uyğun dəyərləndirir. Meqqinin qarabəniz olması cəmiyyətin tələb etdiyi qız obrazına uyğun gəlmir. Meqqi düşünür ki, qaraçılar onu böyük məmnuniyyətlə qəbul edib yüksək zəkasına görə ona hörmət bəsləyəcəklər. Amma qaraçılara Meqqinin biliyi

lazım deyil. Onlar yalnız Meqqinin geyiminə diqqət yetirir. Meqqinin geyimi başqalarında müsbət təəssürat buraxmadığı halda qaraçılar ona heyran olur. Amma Meqqi qaraçılarla söhbətində bu cür geyimlərdən heç xoşlanmadığını deyir ki, məhz qaraçılar kimi qırmızı dəsmaldan istifadə etməyə üstünlük verir. Bununla da Meqqi eynilə aid olduğu cəmiyyətdəki münasibətlə üz-üzə qaldığının fərqinə varır.

Qaraçılar dünyasında xəyal etdiyi ilə qarşılaşa bilməyən Meqqi geri qayıtdıqdan sonra evdə olmadığı müddətdə anası və qardaşının atası tərəfindən danlandığına görə səhv etdiyinin fərqinə varır. Cənab Talliverin yumşaq davranışı ilə Tomun sərtliyi Meqqinin duyğularının qarışmasına səbəb olur.

Lyusi və Meqqinin musiqi gecəsini müzakirə edərkən geyindikləri gecə paltarlarının rəngi də onlar arasındakı fərqi üzə çıxarır. Lyusinin əynindəki ağ paltarı məsumluğu simvolizə edir. Meqqi isə ağ və qırmızı rənglərin vəhdəti olan çəhrayı pambıq paltarla diqqəti çəkir ki, eyni anda həm məsumluğu, həm də arzunu özündə ehtiva edir.

Əsərdə diqqətçəkən məqamlardan biri də “İncil”dir. Talliverlərin saxladığı “İncil” ailə tarixini, sədaqəti simvolizə edir. Belə ki, XIX əsrdə “İncil” bir çox ingilis evlərində saxlanılırdı. Meqqi Talliverlər nəslindən qalma bu kitabda mühüm qeydlər olduğunu söyləyir. Bu müqəddəs kitab geniş istifadə olunduğuna görə ailə ona bağlıdır. Buna görə də Talliver Toma Veykmdən intiqam almaq üçün and içdirəndə kitaba andını qeyd etdirir. Qeydi “İncil”ə yazdıqdan sonra Tom Veykmdən qisas alacağına dair vəd verməklə üzərinə öhdəlik götürmüş olur.

Bütün deyilənlərdən belə nəticə çıxarmaq mümkündür ki, Meqqinin mübarizəsi ənənələrin insana təsir etdiyi, duyğularını məhdudlaşdırdığı, yaxud formalaşdırdığı cəmiyyətə qarşıdır. Meqqinin mənsub olduğu cəmiyyətdə özünəməxsusluq təsdiqlənmir. Cəmiyyətin dəyişikliklərə icazə vermədiyi müddətdə fərqli olmağın heç bir əhəmiyyəti yoxdur, əksinə, bu fərqlilik cəmiyyətdən təcrid olunmağa gətirib çıxarır.

Corc Eliot yaratdığı obraz – Meqqi kimi aid olduğu cəmiyyətlə mübarizə aparmışdır. O, kişi təxəllüsündən istifadə etməklə müəyyən mənada sərhədləri aşa

bilmişdir. Yazıçı həm qadın, həm kişilərin Viktoriya cəmiyyətində üzləşdiyi problemlər və məhdudiyyətlərə bələd olduğundan yaratdığı xarakterləri bu aspektdən təhlil etmiş, hər iki cinsə mənsub nümayəndələrin qarışıq duyğularının yaratdığı çətinliklər barədə məlumat vermişdir.

Corc Eliot əsərdə Viktoriya dövründə qadağan olunmuş hüquq və imkanlara malik azad, müasir qadın obrazı yaratmağa çalışmışdı. Meqqi obrazı ilə o, qadın-kişi münasibətlərinə, sevgiyə öz baxışını əks etdirmişdir.

# NƏTİCƏ

Viktoriyan dövrü ingilis ədəbiyyatının bir nümayəndəsi olaraq Corc Eliot əsərlərində milli mədəniyyəti təsvir etməklə yanaşı, onu dərindən təhlil etmiş, həyatda baş vermiş hadisələri yenidən mənalandırmışdır. Corc Eliot romanlarında qadının mövqeyi, evliliyin xüsusiyyətləri, idealizm və eqoizm, din və ikiüzlülük, siyasi islahatlar və təhsil kimi mövzulara toxunmuşdur. XIX əsrin əyalət həyatının hərtərəfli və zəngin portretini yaratmaqla yanaşı, Eliot psixoloji anlayışlara və əxlaqi ünsürlərə malik modern bir romanlar ərsəyə gətirməyə nail olmuşdur. Eliot dövrünün bir çox qadın yazıçılarından fərqli olaraq, romanlarında xoşbəxt sonluqdan imtina etmişdir.

Yazıçını dünya çapında tanıtdıran romanı "Floss çayı üzərində dəyirman" sənaye inqilabından uzaq İngiltərənin əyalətlərindən birindəki həyatın təsvirini verir. Floss çayı sahilində atasının işlətdiyi bir dəyirmanın yaxınlığında doğulub boya-başa çatmış protaqonist Meqqi böyük qardaşı Tomu ilahi bir məhəbbətlə sevir. Lakin nə qardaşı Tom, nə də valideynləri bu ağıllı və dəli-dolu qızcığaza lazımi dəyər və marağı göstərmir. Ələ-ovuca sığmayan Meqqi illər ərzində mülayim, zəki bir gənc qıza çevrilir. Üzərindəki təzyiqlər və çiyninə qoyulan məsuliyyətlər artdıqca Meqqinin arzuları da təhlükə doğuracaq dərəcədə artmağa başlayır. Gecəqondu həyatının dar qəliblərinə sığmayan Meqqi bir müddət sonra özünü fərqli xüsusiyyətlərə malik üç oğlanın – ailəsinin bütün məsuliyyətini daşıyan qardaşı Tom, rəssam Filip və yuxarı təbəqəyə məxsus, cazibədar olduğu qədər təhlükəli Stivenin əhatəsində tapır. Bacı-qardaşarası rəqabətə anlayışlı yanaşması, güclü ehtirasları birbaşa formada çatdırması, XIX əsr İngiltərə əyalət həyatına dair mükəmməl müşahidə qabiliyyəti və fərd ilə cəmiyyət arasındakı toqquşmanı təsirli bir şəkildə gözlər özünə sərən Eliotun "Floss çayı üzərində dəyirman"ı ən güclü romanlarından biri hesab olunur.

Corc Eliotun adı çəkilən əsərində cəmiyyətin qadınlara qarşı qoyduğu normativlər tənqid olunur. Romandakı qadın obrazlarının timsalında müəllif onların

kimliklərini səciyyələndirmiş, Meqqi obrazı vasitəsilə isə Viktoriyan cəmiyyətində qadın-kişi münasibətlərinə diqqət yetirmiş, müasir, azad ruhlu qadın nümayiş etdirməyə çalışmışdır. Corc Eliot yaratdığı obraz – Meqqi kimi aid olduğu cəmiyyətlə mübarizə aparmışdır. O, kişi təxəllüsündən istifadə etməklə müəyyən mənada sərhədləri aşa bilmişdir. Yazıçı həm qadın, həm kişilərin Viktoriya cəmiyyətində üzləşdiyi problemlər və məhdudiyyətlərə bələd olduğundan yaratdığı xarakterləri bu aspektdən təhlil etmiş, hər iki cinsə mənsub nümayəndələrin qarışıq duyğularının yaratdığı çətinliklər barədə məlumat vermişdir. Corc Eliot əsərdə Viktoriya dövründə qadağan olunmuş hüquq və imkanlara malik azad, müasir qadın obrazı yaratmağa çalışmışdır. Meqqi obrazı ilə o, qadın-kişi münasibətlərinə, sevgiyə öz baxışını əks etdirmişdir.

Romanda təsvir olunduğu kimi, Viktoriya dövrü İngiltərəsi patriarxal cəmiyyət olmuş, qadınların kişilərlə eyni imtiyazlara sahib olmasına imkan verməmişdir və qadınlar üçün basqı dolu bir mühit yaratmışdır. “Floss çayı üzərində dəyirman” əsərinin nəticəsi olaraq Viktoriya cəmiyyətinin müəyyən sosial tələblərinə təkcə qadınların yox, kişilərin də cavab verməli olduğu aşkar edilmişdir. Kişilər də cəmiyyətin ümidlərini doğrultmalı və müəyyən bir rola uyğunlaşmalı idilər.

Roman Meqqi və Tomun ikili təbiətləri arasındakı gender uçurumunu təsvir edir. Müəllifə görə bu münaqişə faciəli sonluqdan başqa heç bir şəkildə həll edilə bilməz, çünki Viktoriya cəmiyyətinin sosial konvensiyaları çox güclüdür. Viktoriya cəmiyyətində qadının rolları əvvəlcədən müəyyən edilib və Meqqi kimi üsyankar bir fərd cəmiyyət tərəfindən qəbul edilə bilməz. Bunun səbəbi Viktoriya cəmiyyətinin sosial iyerarxiyasının mövcud olması, burada kişilər və qadınların sabit davranış modelləri ilə məhdudlaşmış rollara sahib olmaları idi. “Floss çayı üzərində dəyirman” romanı Viktoriya illərində dövrün və cəmiyyətin daha dərindən dərk edilməsindən məhrum, şablonlaşmış məzlum qadın obrazı kontekstdən çıxarılmış və ona C.Eliot tərəfindən müasir interpretasiya verilmişdir. Əsərin sonunda Meqqi öz xoşbəxtliyindən imtina edərək mənəvi nailiyyət əldə etmişdir.

Corc Eliot bu romanına görə tənqidçilər tərəfindən qadına yaraşmayan yüksək intellektuallıq nümayiş etdirməsi iddiası ilə ittiham olunsa da, onun XIX əsr ingilis romanın inkişafında müstəsna rolu vardır. Yaradıcılığında konservativ Viktoriya dövrünə zidd olan yeni meylləri əks etdirən Corc Eliotun əsərləri bu gün və hər dövr üçün mühüm əhəmiyyət və aktuallıq kəsb edir. Tədqiqatlarımız zamanı yazıçının erkən nəsrində XIX əsr ingilis romanına xas ümumi etik meyllərdən təsirləndiyini və bu təsirin nəticəsi olaraq ənənəvi Viktoriyan sənətçisi kimi yazdığını, yaradıcılığının daha sonrakı dövrlərində isə yeni tendensiyaların formalaşdığını müşahidə edirik. Corc Eliot ədəbi yaradıcılığının hələ ilkin mərhələsində özünün necə istedadlı yazıçı olduğunu sübut edə bilmiş və qələmə aldığı ilk əsərlərindən başlayaraq, bütün yaradıcılığı boyu cəmiyyətdə mövcud olan tipik hadisə kimi patriarxal cəmiyyətin tənqidi, pula, var-dövlətə sahib olmaq ehtirasını, əxlaqsızlığı və prinsipsizliyi ifşa etmişdir.

Qeyd etmək istərdik ki, Corc Eliot bu romanında dövrün kişi-qadın ayrıseçkiliyi, təbəqələrarası toqquşmaları, təhsilin əhəmiyyəti, əxlaq məsələləri kimi problemləri bütün dərinliyinə kimi təqdim etməyi bacarmışdır. Eləcə də keçmişin indiki kimliyimiz üzərindəki iddiası, mərhəmətin önəmi, cəmiyyətin fərd üzərindəki təsiri kimi mövzulara xüsusi diqqət yetirmişdir.

Tədqiqatlarımız romanlarında aşağı təbəqənin və aristokratların dünyasına işıq salan Eliotun XIX əsr İngiltərəsini təsvir edərək onu digər tarixi dövrlərin analoqu kimi göstərməyə çalışdığının şahidi olduq. Belə ki, Eliot təsvir etdiyi cəmiyyətin heç də yalnızca öz yaşadığı dövr üçün aktual olmadığını, insan oğlunun var olduğu bütün zaman kəsimlərində öz mövcudluğunu qoruduğunu haqlı olaraq qeyd etmişdir. Beləliklə, bütün deyilənləri ümumiləşdirərək qeyd etmək mümkündür ki, Viktoriyan yazıçı əyalət həyatının təsvirindən istifadə edərək daim mətnin mənasını yüksəltməyə çalışmışdır. Corc Eliotun yaradıcılığındakı qeyd etdiyimiz məqamlar müasir ingilis romanının inkişafına təkan verən amillərdən hesab oluna bilər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

**Azərbaycan dilində:**

1. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. Bakı: ADPU, 2005. 280 s.
2. İsmayılova A. The history of English literature. Volume II. Bakı: Mütərcim, 2021. 288 s.

**İngilis dilində:**

3. Adams K. V. Our Lady of Victorian Feminism. Athens, Ohio: Ohio University Press, 2001. 352 p.
4. Armstrong H. Character and Ethical Development in Three Novels of George Eliot: Middlemarch, Romola and Daniel Deronda. Lewiston, New York: Edward Mellen Press, 2001. 196 p.
5. Ashton R. The Mill on the Floss: A Natural History, Twayne Publishers, Boston, 1990. 152 p.
6. Ashton R. George Eliot: A Life. London: Penguin Books, 1997. 480 p.
7. Barrett D. Vocation And Desire: George Eliot’s Heroines. London and New York: Routledge, 1989. 222 p.
8. Bodenheimer R. The Real Life of Mary Anne Evans: George Eliot, Her Letters and Fiction. Ithaca, New York: Cornell University Press, 1994. 316 p.
9. Cross J. W. George Eliot’s Life as Related in her Letters and Journals. 3 Volumes. New York: Harper & Brothers, 1885.
10. Dolin T. Authors In Context George Eliot. USA: Oxford University Press, 2005, 284 p.
11. Eliot G. Adam Bede. London: Penguin Books, 1985. 562 p.
12. Eliot G. Middlemarch. London: Penguin Books, 1984. 880 p.
13. Eliot G. Romola. London: Penguin Books, 1996. 688 p.
14. Eliot G. Silas Marner: The Weaver of Raveloe. London: Penguin Books, 1994. 242 p.

15. Eliot G. Mill on the Floss. Global Grey, 2018. 548 p.
16. Frankl V. E. Man's Search for Meaning. USA: Beacon Press, 1992. 196 p.
17. George R. Creeger. An Interpretation of Adam Bede, George Eliot-A Collection of Critical Essays, Englewood Cliffs, N.J.: Prentice-Hall, Inc., 1970. 182 p.
18. Gilbert S. M. and Gubar, S. The madwoman in the attic: The woman writer and the nineteenth-century literary imagination. 2 nd ed. New Haven: Yale University Press, 2000. 719 p.
19. Golban P. The Victorian Bildungsroman. Kütahya: Dumlupınar University Press, 2003. 268 p.
20. Hagan J. A Reinterpretation of The Mill on the Floss. PMLA, Vol. 87, No. 1, 2015. pp. 53- 63.
21. Haight G. S. The George Eliot Letters. 9 Volumes. New Haven, Connecticut: Yale University Press, 1954-78.
22. Hardy B. The Novels of George Eliot: A Study in Form. London: The Athlone Press, 1959. 242 p.
23. Harris M., Judith J. The Journals of George Eliot. New York: Cambridge University Press, 1998. 447 p.
24. Hughes K. George Eliot: The Last Victorian. New York: Farrar Straus Giroux, 1999. 383 p.
25. Joan B. George Eliot-Her Mind and Her Art. London: Cambridge University Press, 1974. 202 p.
26. Paxton L. N. George Eliot and Herbert Spencer: Feminism, Evolutionism, And The Reconstruction Of Gender. Oxford: Princeton U.P,1991. 292 p.
27. Robertson L. K. The Power of Knowledge: George Eliot and Education, Peter Lang, New York, 1997. 191 p.
28. Tush S. R. George Eliot and the Conventions of Popular Women's Fiction: A Serious Liteary Response To The "Silly Novels By Lady Novelists". New York: Peter Lang, 1993. 178 p.

**Rus dilində:**

29. Аникст А.А. Английская литература // КЛЭ. М., 1962. Т. 1. С. 194 217.

30. Бурова И.И. Виргинцы в системе романов Теккерея // Вестник ленинградского университета. 1987. № 9. Вып.2. С. 30-33.

31. Дьяконова Н.Я. Ч.Диккенс и У.Теккерей // Писатель и литературный процесс. СПб Белгород, 1998. С. 37-47.

32. Ивашева В.В. Век нынешний и Век минувший: Английский реалистический роман XIX века в его современном звучании. М., 1990. 479 с.

33. Викторовна Ш.Н. Женская проблематика в викторианском романе 1840 - 1870-х годов : Джейн Остен, Шарлотта и Эмили Бронте, Джордж Элиот. Саранск, 2005. 235 с.

**İnternet resursları:**

34. http://www.anl.az/down/meqale/adalet/2010/iyun/121960.htm

35. http://www.newworldencyclopedia.org/entry/Victorian_Literature

36. https://www.theguardian.com/commentisfree/2019/nov/21/the-guardian-view-on-george-eliot-a-novelist-for-now

37. https://www.nytimes.com/1994/05/08/books/george-eliot-dorothea-and-me-rereading-and-rereading-middlemarch.html

38. https://www.theguardian.com/books/2010/mar/27/eliot-mill-floss-biography-tulliver